**SEVİL GÜL NUR**

# QƏLƏBƏ EŞQİYLƏ BÖYÜYƏN KAPİTAN

**Bakı -2021**

Redaktorlar: **Balayar Sadiq**
*AYB-nin üzvü,*
*Prezident mükafatçısı,*
*Beynəlxalq Rəsul Rza*
*ədəbi mükafatı laureatı,*
*"Yurd" ədəbi-bədii jurnalının*
*baş redaktoru*

**Elvin Firudinoğlu**
*şair-publisist*

**Kitabın**
**üz qabığının rəssamı: Sehran Allahverdi**

**Sevil Gül Nur.**
Qələbə eşqiylə böyüyən kapitan.
Bakı, "Gənclik" nəşriyyatı, 2021, 80 səh.

**Kitab ikinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalmış kapitan Nihad Babayevin həyat və döyüş yolundan bəhs edir. Müəllif bədii-publisist dillə vətənin səhid oğlunun şanlı obrazını məhəbbətlə canlandırıb.**

**İnanırıq ki, bu kitab səhid ruhuna ehtiram nümunəsi kimi oxucuların hörmətini qazanacaq.**

**İSBN 978-8020-1870-5-4**

**© Sevil Gül Nur, 2021**

# ÖN SÖZ ƏVƏZİ

İsti yay günlərinin birində yolum Biləsuvara idi. Ürəyimdə ağır bir kədərlə bu görüşə yollanırdım. Yenə bir ananın yaralı ürəyinin qaysağını qoparacaq, yenə bir atanın dağlı qəlbini inlədəcəkdim. Yenə qan ağlayan gözlərin dəryasında batmağa, od olub yandıran sözlərin alovunda yanmağa gedirdim. İllərdir, bu ata-anaların, bacı-qardaşların, şəhid xanımlarının, şəhid övladlarının hüznlü gözlərindən aldığım müsahibələrdən məqalələr yazmağıma, kitab dərc etməyimə baxmayaraq, bir şəhid anasının görüşünə yenə də həyəcanla gedirdim. Yaradıcılığını əsasən bu mövzuya həsr edən biri kimi bu işin çətinliyini anlayır, məsuliyyətini dərk edirdim. Bu görüşün nə qədər ağrılı olacağını da bilirdim. Bilirdim ki, nə desəm, nə danışsam, torpağa dağ boyda oğul vermiş bir ananın qəlbini rahatlada bilməyəcəyəm. Mənim sözlərim aciz qalacaq onun gözündən axan bir damlanın önündə. Amma getməliydim. Şəhidimin adını yaşatmaq, onu hər kəsə tanıtmaq üçün getməliydim...

Bu dəfəki yazım Biləsuvar rayonunun Günəşli kəndindən olan şəhid kapitan Nihad Babayev haqqında olacaq. O Nihad ki, uşaqlıqdan vətən sevgisi ilə böyümüş, qələbə eşqi ilə yaşamışdı. Onun həyat və döyüş yoluna nəzər salanda ömrünü vətənə həsr etmiş bir gəncin ürəyindəki vətən eşqinə heyran olmamaq olmur. Hər aldığı nəfəsdə "vətən" deyən bu igiddən yazmamaq qeyri-mümkündür.

Yol boyu şəhid şəkillərindən ibarət lövhələr bu torpağın necə igid, cəsur oğulları olduğunu bir daha sübut edir. Sıra ilə düzülmüş şəkillər sanki rayona gələn hər kəsi salamlayır, xoş təbəssümlə qarşılayır. Onları seyr etdikcə kədərqarışıq bir qürur bürüyür insanın içini. Fəxr edirsən belə oğullarla. Hər bir şəhidin adını qürurla anır, ruhunu ehtiramla yad edirsən...

Günəşli kəndi Vətən müharibəsində 8 şəhid vermişdi. Kəndin ilk şəhidi Xosuzadə Müşfiq Zakir oğlu sentyabrın 29-də Füzuli rayonu uğrunda gedən döyüşlərdə şəhid olmuşdu. Ondan iki gün sonra – sentyabrın 30-da Cəfərov Telman Nadir oğlu Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə şəhadətə yüksəlmişdi. Oktyabrın 12-də Ağayev Saleh Nurəddin oğlu Cəbrayıl istiqamətində, oktyabrın 16-da Abdullazadə Teymur Faiq

oğlu Tərtər rayonu Suqovuşan istiqamətində, oktyabrın 22-də isə Teymurzadə Nahid Üzeyir oğlu şəhid olmuşdu. Xocavənd uğrunda gedən döyüşlərdə yaralanmış Baloğlanlı Elşad Elşən oğlu noyabrın 18-də, Qənbərli Vüsal İlkin oğlu isə dekabrın 20-də şəhidlik zirvəsinə ucalmışdı. Biləsuvar rayonu Vətən müharibəsində ümumilikdə 69 şəhid vermişdir.

Şəhid kapitan Nihad Babayevin şəklini görən kimi sürücüyə: «Şəhidin şəkli burada vurulub, bu küçə ilə getməliyik», - deyə yolu göstərdim. Evi tapmaq çətin olmadı. Qarşısında məğrur üçrəngli Azərbaycan bayrağı dalğalanan bir evin önündə dayandıq. Qardaşı Fərid bizi hörmətlə qarşıladı, evə daxil olub Seyidxanım ana, Akif ata ilə görüşdük.

Bu ailə ilə məni Bəhruz müəllim tanış etmişdi. Bəhruz müəllim Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid ailələri İctimai Birliyi Biləsuvar Rayon filialının sədri, Qarabağ müharibəsi qazisidir. 2019-cu ildə şəhidlərdən bəhs edən ikinci kitabım olan "Şəhadət sarayı"nın təqdimatının Biləsuvar rayonunda keçirilməsini o təşkil etmişdi.

Günlərin bir günündə zəng edib şəhid kapitan Nihad Babayevdən danışdı, Seyidxanım ana-

nın şəhidimiz haqqında kitab yazdırmaq istədiyini bildirdi. Bəhruz müəllim onu da qeyd etdi ki, ana Nihadın doğulduğu gündən şəhid olduğu günə kimi onunla bağlı xatirələrini qeyd edib və bunu kitab halına gətirmək istəyir. Bu kitabı da mənim yazmağımı istəyir. Sonra ana ilə danışdım. Oğlunun adını əbədiləşdirmək, onu gələcək nəslə tanıtmaq üçün onun haqqında yazmağımı istədi. Təbii ki, böyük məmnuniyyətlə razılıq verdim. Bir şəhid haqqında öyrənmək və onu kitab halında cəmiyyətə təqdim etməkdən şərəfli nə ola bilər? Eyni zamanda da məsuliyyətli olan bu işi həyata keçirməyə həm də mənəvi ehtiyac duyurdum. Sanki bunu etsəm ruhum dincələcək, qəlbim rahatlıq tapacaq kimi gəlirdi mənə. Bizim üçün canını fəda edən vətən oğullarının həyat və döyüş yolundan yazmaqla onların qarşısında olan mənəvi borcumu az da olsa ödəmiş kimi hiss edirdim özümü. Az da olsa ruhumun rahatlığa qovuşması üçün ana ilə görüşə gəlmişdim.

Nihad Biləsuvarda, ata ocağında yeni ikimərtəbəli ev tikdirməyi qərara almışdı. Ev hazır olanda kiçik qardaşı Fəridə: "Yuxarı mərtəbədə mənim üçün bir otaq ayırın, hər dəfə kəndə gələndə orada istirahət edim, sizi narahat etməyim", - deyə istəyini bildirmişdi. Fərid də cavabında: "O nə

sözdür, qardaş? Bu ev sənin evindir, hansı hissəsində istəyirsən, qala bilərsən”,- deyə söyləmişdi. Nihad da otaqlardan birini özü üçün ayırmışdı. Seyidxanım ana bu otağı Nihadın bəy otağı kimi bəzəmək istəmiş, gəlini ilk olaraq ata ocağına gətirəcəyini arzu etmişdi. Nihad isə həmin otağı öz istədiyi kimi düzəltmişdi – otağın divarlarına torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda canından keçmiş silahdaşlarının şəkillərini vurmuşdu. Bunun səbəbini soruşanda isə o kədər dolu gözlərini şəkillərdən ayırmadan: “Bu igidlər bizim üçün bir yol qoydular, biz o yoldan çıxmamaq üçün hər gün onların ruhu ilə danışıb onlara söz veririk. Mən bu şəkillərdən güc alıram. Onlar məni düşmənə qarşı amansız olmağa, qardaşlarımın qanını almağa səsləyir”, - deyə cavab verərdi. Sonra isə yumruqlarını düyünləyib qəzəblə əlavə edərdi: “Gec-tez düşmənin başını əzib torpaqlarımızı azad edəcəyik. O zaman şəhidlərimizin ruhu qarşısında verdiyimiz sözə əməl etmiş olacağıq, onların da ruhu şad olacaq”.

Şəhid kapitanın otağını ziyarət edərkən şeirimdən olan bu misralar dilimdən ixtiyarsız olaraq çıxdı: «İlahi, saxla qəbulu, Cənnətdə yerlər dolubdur...» Şəhid Nihad Babayevin otağında bir çox şəhidimizin rəsmlərdən boylanan gülümsər

siması məni qarşıladı. Onun otağında Polad Həşimov, Mübariz İbrahimov və digər şəhidlərin şəkillərini gördüm.  Bəlkə də bir gün öz şəklinin də onların arasında olacağını hiss etmişdi, bəlkə də ailəsini o günə hazırlayırdı...

Bu düşüncələrdən məni Seyidxanım ananın səsi ayırdı:

– Nihad haqqında bir-iki qeyd etmişəm, qızım, hamısı bu dəftərdədir. Onu da sənə verirəm, lazım olan məlumatları buradan götürə bilərsən.

Rəfə düzülmüş qəzetlərdən birini açıb oxumağa başladım. Qələbə ilinin qışında ana Nihadla bağlı qəzetə verdiyi müsahibəsində onun haqqında kitab yazılacağını, adını da "Qələbə eşqi ilə böyüyən kapitan" qoyacağını bildirmiş, aylar sonra isə bu kitabın yazılması üçün mənə müraciət etmişdi…  Nə qədər böyük bir ürəyə sahib olasan ki, iki cahana sığmaz bu ananı götürüb bağrının başına qoyasan, ürəyinə sığdırasan. İçimdən gələn sözlərin yolunu boğazıma dolan qəhər kəsdiyindən dilim söz tutmadı, nəmli gözlərimdən çıxan ifadələrlə anaya təşəkkür edib ondan ayrıldım...

# Qələbə eşqiylə böyüyən kapitan

1991-ci ilin yayı idi. Ölkədə müharibə gedirdi. Azğın düşmən onlara illər öncə verdiyimiz sığınacağa qane olmayıb yeni torpaq iddiasına çıxmışdı. Bizim olanı əlimizdən almaq, özünküləşdirmək üçün hər cür hiyləyə, mənfurluğa əl atmışdı. Kələyi baş tutmadıqda isə utanmadan qarşımıza keçib səbəbsizcə silahlı münaqişəyə başlamışdı. Vətənin igid oğulları da onlara layiqli cavabını vermək, yolunu azmışları geri oturtmaq üçün ayağa qalxmış, yurdu yağı düşməndən müdafiə etmək üçün səfərbər olmuşdular. Heç bir müharibə qurbansız ötüşmədiyi kimi Qarabağ savaşı da çoxlu can alırdı. Yenicə müstəqil olmuş bir dövlət, ayaqları üzərində təzəcə durmağa başlayan bir ölkə üçün bu müharibə çox ağır nəticələndi. Düşmən öz havadarları sayəsində hücum edərək irəli keçir, biz isə müdafiə olunmağa çalışırdıq. Tərəflərin qeyri-bərabər gücü nəticəsində itkilərimiz gün-gündən artırdı.

Belə günlərin birində - avqust ayının 30-də Biləsuvar rayon doğum evində bir canlanma var idi. Həmin gün dünyaya gələn körpələrin beşi oğlan uşağı idi. Tibb bacısı içəri girib sevinclə dedi:

– Canını fəda edən şəhidlərin yerini dünyaya gələn körpələr əvəz edir. Düşmən sevinməsin qoy. Biz məğrur və yenilməz xalqıq! Biz bir ölər, min dirilərik!

Doğulan oğlan uşaqlarından biri də Biləsuvar rayonunun Günəşli kəndində yaşayan Babayevlər ailəsinə sevinc gətirmişdi. Bu uşaq Azərbaycanın azad gələcəyi üçün doğulanlardan biri idi, bu uşaq seçilmişlərdən idi. Bu uşaq müstəqil Azərbaycanı illərin işğal damğasından qurtarmaq, xalqının yurd həsrətini sona yetirmək üçün dünyaya gəlmişdi. Anası Seyidxanım ana da sanki bunu hiss edir, onun başı üzərində layla əvəzinə "Ay vətən oğlu", "Şəhidlər" mahnısını oxuyurdu. Gələcəyin igid əsgəri bu musiqi sədaları altında böyüyür, vətən sevgisi ana səsiylə damla-damla qanına hopurdu.

Nihadın uşaqlıq illəri müharibə dövrünə düşdü. O böyüdükcə vətənində baş verən müsibətləri görür, bu ağrıları ürəyinin dərinliyində çəkirdi. Ana oğul böyütdükcə bir gözü ağlayır, bir gözü gülürdü. Ağlayırdı ona görə ki, şəhid analarının dərdini anlayırdı, onların acısına şərik olurdu. Sevinirdi ona görə ki, bu gün doğulan oğullar sayəsində tökülən qan yerdə qalmayacaq, şəhidlərin qisası alınacaqdı. Anası hər dəfə ona "Sən şəhid-

lərin yerinə doğulmusan, oğul!" deyəndə Nihad da qürurlanır, tez böyümək, tökülən qanların qisasını almaq istəyirdi.

Nihad uşaqlıqdan çox fəal idi. Hələ kiçik yaşlarından idmanla məşğul olur, ən çətin hərəkətləri yerinə yetirirdi. O sanki balacalıqdan özünü hərbə hazırlayırdı. Hər çətinliyə sinə gərmək üçün özünü imtahan edirdi. Bir dəfə idman edərkən qıçı sınır. Bir ay gipsdə qalmasına baxmayaraq yenə ayağa qalxır, asta addımlarla gəzməyə çalışırdı. Anası onun ayağını yenidən zədələyəcəyindən ehtiyatlanıb bir yerdə qalmasını istəyəndə o gülümsəyib cavab vermişdi: "Ay ana, gələcəyin əsgərinə yaraşarmı adi sınıqdan ötrü yatağa düşsün?" Qohumlar ona nadincliyinə görə irad tutanda cavab verərdi ki, kişi gərək uşaqlıqdan bərkə-boşa düşə, yoxsa vətəni qorumağa dözümü olmaz.

Nihad Babayev 1997-ci ildə Günəşli kənd şəhid Fazil Hökməliyev adına məktəbə daxil olmuş, 5-ci sinfi bu məktəbdə bitirmişdi. Sonra Bakı şəhər Xəzər rayonu Türkan qəsəbəsində yerləşən Elmar Mirzəyev adına tam orta məktəbdə təhsilini davam etdirmişdi. Məktəbdə sinif müəllimi ondan böyüyəndə kim olacağını soruşanda, o, şəstlə: "General olacağam, vətənimin hərbçilərə çox eh-

tiyacı olacaq. Çünki qanla verilən torpaq qanla da alınacaq", - deyə cavab vermişdi.

Bir gün məktəbdə şeir müsabiqəsi keçirilirdi. Nihadın qardaşı Fəridə və bacısına şeir verilmişdi. Nihad anasının yanına gəlib özünün də şeir demək istədiyini bildirdi və anasından xahiş etdi ki, ona da bir şeir öyrətsin. Ana xatirə dəftərini açıb oradan anaya aid bir şeir seçdi və Nihada oxudu. Şeiri diqqətlə dinləyən uşaq anasından şeirdə dəyişiklik edə biləcəyini soruşdu. Bu sual anaya çox maraqlı gəldi. Hansı sözü nə ilə əvəz edəcəyini soruşduqda aldığı cavabdan daha da təəccübləndi. Nihad şeirdəki "ana" sözünü "vətən" sözü ilə əvəz etmək istədiyini söylədi. Ananın gözləri doldu. Oğlunu bağrına basıb üzündən-gözündən öpərək razılıq verdi. Bir neçə gün sonra səkkizyaşlı uşağın söylədiyi "Vətən" şeiri müsabiqədə yer qazandı, Nihad fəxri fərmanla təltif olundu. O, ürəyinin torpaq yanğısını, qəlbinin vətən həsrətini şeirə qataraq bu misralarla hər kəsin qəlbini riqqətə gətirmişdi:

***"Mən bir quşam, daş qəfəsdə,***
***Könlüm əsir, qulaq səsdə,***
***Hər addımda, hər nəfəsdə***
***"Vətən" deyib hey ağlaram…"***

Bir məktəblinin səmimi hisslərlə söylədiyi bu şeir vətən məhəbbətinin ana məhəbbətindən üstün olduğunun sübutu idi…

5-ci sinfi bitirdikdən sonra Nihad Bakı şəhər Xəzər rayonu Türkan qəsəbəsində yerləşən Elmar Mirzəyev adına tam orta məktəbdə təhsilini davam etdirdi. Hərb işinə böyük marağı olduğundan 2006-cı ildə oranı əla qiymətlərlə, fəxri fərmanlarla bitirib sənədlərini C. Naxçıvanski adına hərbi liseyə verdi. İmtahanlarını uğurla verib qəbul olarkən onun sevincinin həddi-hüdudu yox idi. Artıq arzusuna çatmışdı, sevdiyi peşəyə sahib olacaqdı. İndi hərbin sirlərini mükəmməl öyrənməli, bütün döyüş texnikalarının sirlərinə yiyələnməli idi. Çünki vətənin ona ehtiyacı vardı, vətən onu gözləyirdi. Hər keçən gün Nihad ürəyində: "Sənə bir az daha yaxınlaşıram, vətən, mən gəlirəm, yaralarını sarmağa, səni yenidən bütövləşdirməyə gəlirəm, az qaldı", - deyə özünü o günə hazırlayırdı.

Hərbi liseydə təhsil aldığı müddətdə öz çevikliyi, təlimlərə hazırlıqlı olması ilə bütün komandanlığın rəğbətini qazanmışdı. Hər dəfə təlimləri uğurla yerinə yetirən gənc kursant hərbi rəhbərlik tərəfindən tərifnamələr almış, fəxri fərmanlarla təltif olunmuşdu. Beləcə, gələcəyin peşəkar za-

biti vətənin azadlığını təmin etmək üçün o böyük günə hazırlaşırdı.

Təhsil aldığı liseydə yüksək rütbəli zabitlərin iştirakı ilə keçirilən tədbirdə ona söz verildikdə: "Təlimdə tər tökən döyüşdə zəfər qazanar",- cümləsi ilə çıxışını bitirdi və gənc zabitin bu sözləri hər kəsin alqışına səbəb oldu.

Məzuniyyətə gəldiyi vaxtlarda qonşu uşaqlara tövsiyə edərdi ki, dərslərini yaxşı oxusunlar, vətənə, xalqa savadlı vətəndaşlar, peşəkar zabitlər çox lazımdır. Onun hər söhbətində, hər sözündə vətənə məhəbbət, xalqa sevgi hiss olunurdu. Bu sevgi onun gözlərindən də oxunurdu. İşğalda olan torpaqlarımızdan söz düşəndə gözləri uzaq məchulluğa tuşlanar, bəbəklərində həsrət dolu sevgi işığı parlayardı. O yerləri tezliklə azad edəcəyinə bütün qəlbi ilə inanar, hamını da buna əmin edərdi.

Bir dəfə də məzuniyyətə gəlmişdi. Onu rayon mərkəzindən böyük qardaşı Fərid aparıb yola saldı. Fəridin gözlərindəki ayrılıqdan doğan həsrət baxışını görən Nihad onun boynunu qucaqlayıb öpdü:

– Qardaşım, bizi bu vətən üçün yetişdiriblər, biz də bu vətənin hər qarışı üçün canımızdan keçməyə hazır olmalıyıq,- deyib onun əlini bərk-bərk sıxdı. Bir- iki addım atdıqdan sonra dayandı, geri

dönüb qardaşına:

– Şəhid olsam, heç vaxt ağlama! – deyə əlavə etdi. Fərid onun bu sözündən çox təsirləndi, gözləri doldu:

– Niyə belə deyirsən?

– Hər şeyə hazır olmaq lazımdır, qardaş. Qanla verilən torpaqlar qanla da geri alınacaq, - deyə yoluna davam etdi.

Fərid Nihadın ardınca: "Allah səni qorusun, qardaşım!", – deyə səsləndi. Nihad isə cavabında əlini havada yelləyərək qardaşı ilə sağollaşdı.

Ona niyə hərbçi olması barədə sual verəndə Nihad cavabında xatirələrini dilə gətirirdi: "Mənim üç yaşım olardı, anam ağlayırdı. Soruşdum, ana, niyə ağlayırsan? Anam cavab verdi ki, necə ağlamayım, ay bala? O cür igidlərimiz şəhid oldu, el-obamız viran qaldı, qız-gəlinimiz əsir düşdü. Bu dərd sinəmdə dağa dönüb, köksümü yandırır. O vaxtdan mən qələbə eşqi ilə böyüdüm. Qarşıma məqsəd qoydum ki, doğma torpaqları işğaldan azad edənlərdən biri də mən olacağam". Bu sözlər artıq onun həyat amalına çevrilmişdi, o öz həyat yolunu seçmişdi, gedəcəyi yolu bəlli idi.

2008-ci ildə liseyi bitirib Heydər Əliyev adına Ali Hərbi Akademiyasına daxil oldu, 2012-ci ildə oranı da uğurla bitirdi.

2014-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində təlim keçən Nihad leytenant rütbəsi alaraq Xüsusi Təyinatlı Qüvvələr kursuna yazıldı. Kursu uğurla bitirdiyində artıq bölgələrə göndərilmə vaxtı çatmışdı. Artıq peşəkar bir zabit kimi vətənin müdafiəsinə yollanmağa hazır idi. O, anasından soruşdu:

– Ana, bilirsən, təyinatımı hansı bölgəyə aldım?

– Desən, bilərəm, oğul, – deyə ana sualdolu nəzərlərlə oğluna baxdı.

Nihadın gözlərindəki parıltını görmək çətin deyildi:

– Ən çox sevdiyim bir şəhərə - Naxçıvana gedirəm.

Ananın gözləri yaşardı:

– Yolun açıq olsun, oğul. Tutduğun bu şərəfli yolda uğur daim səninlə olsun.

Nihad anasının boynunu qucaqlayıb üzündən öpdü:

– Ana, mən bu günə qədər nə arzu etmişəmsə, hamısına çatmışam. Bircə arzum qalıb – vətənimi azad edib qələbə gününü görmək. Allahın köməyi ilə bu arzuma da çatacağam.

Ana oğlunun bu istəyinə "amin" deyib ona xeyir-dua verdi.

Nihadı Naxçıvana yola salan ailəsi ayrılana qədər onun yanında oldu. Ana ürəyi oğlunun ondan uzaqda qalmasına dözə bilmirdi, gözləri sakitcə yaş axıdırdı. Nihad isə çox həyəcanlı idi, tez getmək üçün səbirsizlənirdi. Tez-tez: "Bəs təyyarə nə vaxt qalxacaq?" – deyə yanındakılara sual edirdi. Birdən anasının nəmli gözlərini görüb ona yaxınlaşdı, əlləri ilə onun göz yaşını silib dedi:

– Ağlama, ana. Mən dünən şəhidlər xiyabanında idim. Eloğlum Mübariz İbrahimovun məzarını ziyarət edərkən ona söz verdim, dedim ki, bir gün gələcək, sənin qisasını alacağıq, uğrunda can qoyduğun torpaqları yağı tapdağından xilas edəcəyik, vətənimiz işğaldan azad olunacaq. Bu sözümü tutmaq üçün mən getməliyəm, ana. Sən məni gülə-gülə yola sal. Sənin oğlun müqəddəs bir amal üçün gedir. Vətən məni gözləyir!

Təyyarə qalxanda oğlunun dalınca əl sallayan ananın gözlərində artıq yaşlar qurumuş, qulaqlarında oğlunun dediyi bu cümlə qalmışdı: "Sənin oğlun müqəddəs bir amal üçün gedir…"

Bir müddət sonra Naxçıvandan ailəsinə şəkil yollayan Nihad getdiyi yerə sağ-salamat çatdığını bildirirdi. Şəkil orada hansısa bir ziyarətgahda çəkilmişdi. Nihad əllərini açıb Allahdan nə isə diləyirdi. Ana onun diləyinin nə olduğunu soru-

şanda Nihadın cavabı gözlənilən olmuşdu: "Vətənimin azadlığını, torpağımın işğaldan qurtulmasını diləyirdim. Başqa nə istəyim ola bilər ki?"

Bəli, Nihadın başqa arzusu, istəyi yox idi. Bircə vətən torpaqlarını azad etmək, məcburi köçkünlərin öz yurdlarına qayıtmağını görmək, xalqının şad-hürrəm günlərini görmək istəyirdi. O, qələbə eşqi ilə yaşayırdı.

Xidməti dövründə də kapitan Babayev öz peşəkarlığı ilə seçilirdi. Bir zabit kimi ciddi və tələbkar olan komandir həm də əsgərlərinə dost, qardaş idi. Onların dərdlərinə şərik olur, sevinclərinə şadlanırdı. Əsgərlərin rastlaşdıqları problemləri ilk onunla bölüşməsi, ona deməsi üçün Nihad həmişə onlarla dost münasibəti saxlayırdı. Hətta özünün məzuniyyəti zamanı tez-tez hərbi hissə ilə əlaqə saxlayıb səlahiyyətli şəxslərdən əsgərlərin əhvalını soruşar, onların vəziyyəti ilə maraqlanardı. Süfrəyə əyləşərkən belə öncə əsgərlərinin yemək yeyib-yemədiyini öyrənər, bundan sonra əlini çörəyə uzadardı. Həmişə deyərdi ki, əsgərlərim mənim qardaşlarımdır, onları valideynləri bizə əmanət edib, biz də onların qayğısına qalmalıyıq.

İldə bir dəfə məzuniyyətə gələn Nihad hər dəfə həm şəhərdə, həm rayonda şəhidlər xiya-

banına gedir, şəhidləri ziyarət edir, ruhunu ehtiramla anırdı.

O, xalqının sevincinə, kədərinə şərik bir oğul idi. Vətən, torpaq onun üçün böyük məna kəsb edirdi. Dövlət rəmzlərinə hörmət edir, onları müqəddəs hesab edirdi. Bayrağımız haradasa əyri, yaxud çirkli olanda buna dərhal reaksiya verirdi. Bir dəfə məzuniyyət zamanı Biləsuvarda qəbiristanlıqda ucaldılan bayrağın çirkli olduğunu görmüş və buna görə çox pis olmuşdu. Azərbaycan bayrağının bu vəziyyətdə dalğalanmasına razı olmamış, dostuna pul vermişdi ki, tez bir bayraq alıb onu dəyişsin. Təbii ki, onun belə vətənpərvər ruhda böyüməsində ailənin və məktəbin rolu az olmayıb. Onu böyüdən valideynlər və təhsil verən müəllimlər Nihadı vətən üçün layiqli bir vətəndaş, cəmiyyət üçün xeyirli bir şəxsiyyət kimi yetişdirmişdilər.

Nihad artıq evlənmək yaşına çatmışdı. Bütün analar kimi Seyidxanım ana da oğul toyu görmək, nəvə-nəticə sahibi olmaq istəyirdi. Bir gün Nihad məzuniyyətə gələndə ana ürəyində saxladığı gizli niyyəti ona açdı:

– Ay oğul, oxudun, işin də var, daha nəyi gözləyirsən?

Nihad anasının niyyətindən xəbərdar olsa da, özünü bilməzliyə vurdu:

– Nə etməyimi istəyirsən, ay ana?

– Axı mənim də arzum var - sənin toyunu görmək istəyirəm. Könlündə olanı de, elə bu gün gedim qapısına.

Nihad isə müxtəlif bəhanələr gətirərək söhbətdən yayınmağa çalışdı:

– Hələ evimi tikim, sonra. Bir az da gözləmək lazımdır, ana.

Əslində, ana Nihadın fikrini çox gözəl bilirdi – Qarabağ azad olmayınca o bu işə qol qoymayacaqdı. O öz toyunu Cıdır düzündə etmək istəyirdi.  Bütün bayramlarda, xeyir işlərdə bircə arzu deyirdi: “Gün gələcək bu bayramları Şuşada, Laçında, Kəlbəcərdə keçirəcəyik. Üçrəngli bayrağımız Qarabağımızın hər yerində dalğalanacaq”. Nihadın bu sözlərindən sonra ana arzusunu bir müddət də ürəyində saxlamalı olduğunu anladı.

2016-ci ildə baş vermiş aprel döyüşündəki zəfərimiz yanan qəlbləri bir balaca sərinlətdi. Beşgünlük müharibədə geri qaytardığımız ərazilər böyük qələbədən xəbər verirdi. Nihad bu döyüşdə iştirak edə bilməsə də, özünü bütün ruhu ilə həmin döyüşdə hiss edirdi. Geri alınan yüksək-

liklərin sevincini yaşayaraq özünü böyük qələbəyə hazırlayırdı.

Nihad Babayev 2016-cı ildə hərbi ixtisaslaşdırma üzrə təhsil almaq üçün Türkiyə Respublikasına yollanmış və kursu müvəffəqiyyətlə başa vurmuşdu. 2018-ci ildə vətənə dönərək peşəkar zabit kimi xidmətini davam etdirmişdi. Xarici dövlətlərdə xüsusi təyinatlı kurslar keçən Nihad Babayev xidməti dövründə bir çox nailiyyətlər əldə etmişdi. O, peşəkar snayperçi və kəşfiyyatçı kimi bir çox xüsusi əməliyyatlarda iştirak etmişdi. O, 2018-ci ildə Azərbaycan Ordusunun yaranmasının 100 illiyi ilə əlaqədar olaraq medalla, 2020-ci ilin iyununda "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalla təltif olunmuşdu. 2020-ci il 27 iyunda isə kapitan rütbəsinə layiq görülmüşdü. Nihad Babayev hərbi hissənin moto-atıcı taborunun moto-atıcı bölüyünün moto-atıcı tağımının komandiri, xüsusi təyinatlı bölüyün xüsusi təyinatlı qrup komandiri, hərbi hissənin qərargah və təchizat bölüyünün komandiri, xüsusi təyinatlı bölüyün komandiri, tabor komandirlərinin maddi-texniki təminat üzrə müavini vəzifələrində xidmət etmişdi.

Onun qələbə arzusu iki il sonra qismən də olsa gerçəkləşdi. 2018-ci ildə Naxçıvanda baş ver-

miş "Günnüt əməliyyatı"nda iştirak edən Nihad Babayev bir neçə yüksəkliyin alınmasında iştirak etmiş, bu nailiyyətlərinə görə fəxri fərmanla təltif olunmuşdu. O, bu döyüşdə düşmənə sarsıdıcı zərbələr endirmiş, böyük qəhrəmanlıqlar göstərmişdi. Ona tapşırılan əməliyyatı uğurla yerinə yetirən Nihad Babayev düşmənin bölmə komandirinin hərəkətdə olan avtomobilini və şəxsi heyətini uzaq məsafədən "İstiqlal" snayper silahı ilə məhv etmişdi. Amma Nihad daha böyük qələbə istəyirdi. O bilirdi ki, Azərbaycan ordusunun da, oğullarının da gücü kifayət qədərdir, onlar düşməni məhv etməyə hazırdırlar və inanırdı ki, bir gün o gözlənilən əmr veriləcək, Nihad da bu əmri icra etmək üçün irəli atılacaq, öz amalına qovuşacaqdı.

Düşmən ölkə ilə aramızda atəşkəs elan olunmasına baxmayaraq, mənfur yağı həmişə təxribat törədərək bu atəşkəsi pozur, beynəlxalq hüquq normalarını kobudcasına pozurdu. Bu təxribatın qarşısı tərəfimizdən layiqincə alınsa da, qurbansız da ötüşmürdü – hər dəfə şəhid verirdik. Azərbaycan oğullarının şəhid olması Nihada çox təsir edirdi. "Nəyi gözləyirik?" – deyə hər dəfə cavabsız suallarla beynini məşğul edirdi.

2020-ci ilin 12 iyulunda düşmən növbəti dəfə təxribata əl atdı. Tarixə "Tovuz döyüşləri" adı al-

tında düşən bu döyüş Ermənistan-Azərbaycan dövlət sərhəddinin Tavuş mərzi və Tovuz rayonu əraziləri boyunca başlamışdı. Ermənistan Silahlı Qüvvələri atəşkəsi kobudcasına pozaraq Azərbaycan Ordusunun mövqelərini atəşə tutdu. Gün ərzində mövqelərimizi iriçaplı silahlardan və ağır artilleriyadan atəşə tutan düşmənin təxribatının qarşısı alındı və dayaq nöqtələri, yüzlərlə hərbi qulluqçusu məhv edildi. Tovuz istiqamətində olan bu gərginlik iyulun 13-nə keçən gecə də davam etdi. Cavab atəşi ilə susdurulan düşmən çoxlu sayda zirehli və canlı qüvvəsini itirdiyini gizlətməyə çalışdı. İyulun 14-də düşmən Tovuzun Ağdam və Əlibəyli kəndlərini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə tutdu. Bu təxribat nəticəsində Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov, polkovnik İlqar Mirzəyev, həmçinin, 5 hərbi qulluqçu şəhid oldu.

İyulun 15-də səngiyən döyüşlər iyulun 16-da yenidən başladı və həmin gün Azərbaycan Ordusunun bir hərbi qulluqçusu şəhid oldu. Tovuz döyüşləri iyulun 17-də Azərbaycan Ordusunun qələbəsi ilə yekunlaşdı və heç bir ərazi itkisi olmadı. Bu döyüşlərdə Azərbaycan Ordusunun 12 hərbi qulluqçusu – general Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Anar Novruzov, mayor Namiq

Əhmədov, baş leytenant Rəşad Mahmudov, gizir İlqar Zeynallı, gizir Yaşar Babayev, çavuş Vüqar Sadıqov, baş əsgər Elşad Məmmədov, əsgər Elçin Mustafazadə, əsgər Nazim İsmayılov, əsgər Xəyyam Daşdəmirov şəhid oldu. Və bu döyüş böyük zəfərə gedən yolun təməlini qoydu…

Polad Həşimovun şəhid olması xəbəri bütün azərbaycanlılar kimi Nihadı da çox üzdü, eyni zamanda da qəzəbləndirdi. Bu xəbər dolmaqda olan səbri daşırtdı, kükrəməkdə olan qəzəbi püskürtdü.

– Bizim üçün orada generalımız şəhid olur, amma bizə icazə verilmir gedib düşmənin başını əzək, – deyə bütün gün qanıqara halda gəzindi.

Avqustun 28-i idi. Nihadın doğum gününə iki gün qalırdı. Amma nədənsə o öz doğum gününü ayın 28-də qeyd edirdi. Bu il də həmin gün dostu Polada zəng vurub hal-əhval tutduqdan sonra ondan bir xahişini yerinə yetirməsini istədi.

– Canla, başla, qardaş. Buyur, de, sənin üçün nə etməliyəm? – deyə Polad soruşdu.

– Atamgili apar Mübariz İbrahimovun valideynləri ilə görüşdür,- deyə Nihad xahişini açıqladı, – de ki, bunlar kapitan Nihad Babayevin valideynləridir. De ki, Nihad Mübarizin qanını alacaq!

– Baş üstə, qardaş, apararam da, deyərəm də, sən narahat olma. Sən özünə yaxşı bax.

Mübariz İbrahimovun və minlərlə digər şəhidlərin qanını almaq üçün o böyük günün gəlişini gözləyirdi Nihad. 11 illik hərb həyatında öyrəndiyi bütün döyüş texnikalarını yalnız təlim meydanında sınaqdan keçirməkdən artıq yorulmuşdu. Artıq gerçək döyüş istəyirdi. Düşməni yurdumuzdan qovub torpaqlarımızı azad edəcəyi günü səbirsizliklə gözləyirdi.

Nəhayət, həmin gün yetişdi. Artıq illər idi ki, dolan səbir daşdı, bir qığılcımdan alov yarandı, yerə düşən bir toxum cücərib bəhərini verdi. Polad iradədən güc alanlar birləşərək keçilməz dağa, alınmaz qalaya döndülər. Tovuz döyüşlərindən sonra Azərbaycan müharibəyə hazırlaşdığını tədricən bəyan etməyə başladı. Dövlət-xalq birliyi möhkəmlənərək bir-birini tamamlayan vahid gücə çevrildi. Tovuz döyüşləri dördgünlük aprel müharibəsindən sonra Azərbaycanın müasir hərb tarixində yeni səhifə açdı və qələbəyə gedən yolun təminatçasına çevrildi.

2020-ci il sentyabrın 27-də Azərbaycan dövləti öz ərazi bütövlüyünü bərpa etmək üçün müharibəyə başladığını elan etdi. Bu günü çoxdan gözləyən xalq dövlətin bu qərarını böyük coşqu

ilə qarşıladı, hamılıqla ayağa qalxıb torpaqların azadlığı uğrunda mübarizəyə başladı. Bölgələrdə və şəhərdə hərbi komissarlığın qarşısına yüzlərlə gənc toplaşıb könüllü olaraq cəbhəyə getmək üçün qeydiyyatdan keçirdilər. Vətən sevgisi, yurd həsrəti hamını səfərbər etmişdi. Bu günü böyük həsrətlə gözləyənlərdən biri də illərini vətənə həsr edən kapitan Nihad Babayev idi.

O, cəhbədə döyüşmək üçün hərbi komandanlığa müraciət etdi. Lakin həm Naxçıvanda olduğu, həm də fəxri qarovul rəisi vəzifəsini icra etdiyi üçün ona icazə verilmədi. Nihad illərlə gözlədiyi bu məqamdan istifadə edə bilmədiyi üçün çox narahat oldu. Nihad xüsusi təyinatlı zabit olduğu üçün bilirdi ki, nə vaxtsa Naxçıvan bölüyü də döyüşə gedəcək. Ona görə də hər dəfə komandana müraciət edirdi ki, çağırış gələrsə, siyahıda ilk onun adı olsun. Nəhayət, növbə Naxçıvanda xidmət edən hərbçilərə də çatdı. Onları hissə-hissə döyüşə aparırdılar. İlk gedənlər sırasında Nihadın adı yox idi. O bundan çox pərişan oldu. Hətta qardaşı Fəridə zəng edərək onunla “dərdləşdi”, müharibədə iştirak edə bilmədiyi üçün qanının qaraldığını dedi:

– Demişdim ki, ilk məni göndərsinlər, amma bu dəfə saxladılar.

– Darıxma da, Nihad, vaxtı çatanda sən də gedəcəksən.

– Dözə bilmirəm e, başa düşürsən? O soysuzların kökünü kəsmək üçün səbirsizlənirəm, – deyə Nihad əsəbi halda əlini oturduğu yerə vurdu.

Fərid bu barədə anasına deyəndə ana ürəyi dözmədi, tez oğluna zəng edib halını öyrənmək istədi. Nihad məyus halda anası ilə danışdı:

– Ana, illərdir ki, mən bu günü gözləyirəm, axı sən bilirsən, mən bu arzuyla böyümüşəm, indi mənim torpağımda müharibə gedir, mənsə burda oturub sadəcə seyr edirəm.

Ana oğlunu sakitləşdirməyə çalışdı:

– Səbirli ol, oğul, sənin də növbən çatanda aparacaqlar.

– Ana, mən birinci getmək istəyirəm, o torpaqları ilk azad edənlər sırasında olmaq istəyirəm, - deyə Nihad səbirsizcəsinə dilləndi.

Müharibənin ilk günlərindən ordumuz xalqı qələbə xəbərləri ilə sevindirdi. Elə ilk gündən qazanılan zəfər xalqı və ordunu qələbəyə daha da ruhlandırdı. Günlər keçdikcə vətən mülkü kənd-kənd böyüyür, rayon-rayon bütövləşirdi. Sentyabrın 27-də ilk olaraq Füzulinin 4, Cəbrayılın 2 kəndi işğladan azad edildi. Bunu efirdən elan edən aparıcının həyəcanlı səsi, sevinc dolu göz

yaşları hər kəsi kövrəltdi. Bu hissi yaşamaq çox gözəl idi! Artıq günortadan xeyli keçmişdi, amma hər kəs telefonlarda, sosial şəbəkələrdə, küçələrdə idi. Hər kəs qələbə sevincini yaşayırdı. Yemək heç kəsin yadına düşmürdü, heç kim mətbəxə keçmirdi. Nə sirr idisə, uşaqlar da: "yemək",- deyə analarının sağ-soluna keçmirdilər. İlahi, nə şirinmiş qələbənin dadı! Necə doyururmuş adamı!

Amma qələbə qurbansız olmur... Belə gərgin döyüşlərdə şəhidlərin olacağı da hamıya məlum idi. O oğulları dünyaya gətirən analar vüqarla dayanıb şəhid olmuş oğullarını qarşılayır, başı dağlardan uca atalar "Vətən sağ olsun!",- deyib oğullarından onlara nişanə qalmış bayrağı öpüb bağırlarına basırdılar. Çünki nəticə var idi – Qələbə! Şəhid ruhlarının rahatlıq tapıb göylərdən bizə sevinclə baxdığının təminatçısı olan Qələbə!

Nihad sanki narahat idi – azad etmək üçün ona ərazi qalmayacağından narahat olurdu. Günbəgün, saatbasaat geri alınan torpaqlar Nihadda bu təəssüratı yaradırdı. Ömrü boyu gözlədiyi bu fürsəti əldən qaçıracağından ehtiyat edirdi. Çünki Azərbaycan ordusunun və əsgərlərinin gücünə bələd idi, bilirdi ki, tez bir zamanda işğal altında olan bütün torpaqlar azad olunacaq. Ona görə də bu qələbədə onun da payının olması, xalqına bu sevinci yaşada bilməsi üçün tələsirdi.

İlk olaraq gedənlərin arasında xidmət etdiyi hərbi hissənin qərargah rəisi, mayor Nəsir Zeyniyevin olduğunu biləndə Nihad müxtəlif səviyyəli komandirlərə yaxınlaşıb Nəsirin 3 övladı olduğunu əsas gətirərək onun əvəzinə özünü aparmalarını xahiş etdi. Təbii ki, belə bir arzuolunan döyüşdə iştirak etmək mayor Zeyniyev üçün də əhəmiyyətli idi. Nihad bunu bilsə də, həm mayoru, həm də komandirləri razı salmağa çalışır, cəbhəyə getmək üçün çox cəhd edirdi. Lakin onun təkidinə baxmayaraq, razılıq verilmədi. Nihad bu qərardan məyus olsa da, könüllü olaraq döyüşdə iştirak etmək üçün dəfələrlə müraciət etdi və bu dəfə göndərilənlər sırasında onun da adı yer aldı.

Gözlədiyi o böyük gün gəlib çatdı. Oktyabr ayının 3-ü idi. Nihad artıq həsrətində olduğu, azadlıq bəxş etməyə can atdığı o torpaqlara yola düşürdü. Bir vaxtlar anasına dediyi kimi, bütün reallaşmış arzuları kimi bu arzusu da gerçəkləşirdi. İndi Nihad uşaqlıqdan bu günə kimi ürəyində böyütdüyü bu eşqin dalınca gedirdi. Onun cəbhə bölgəsinə getməsindən ata-anasının xəbəri yox idi. Bir qardaşı Fərid, bir də bacısı Ülviyyə bu haqda bilirdi. Elə yola düşəndə də ilk olaraq bacısına zəng etdi. Onun səsindəki sevinci Ülviyyə aydın hiss edirdi:

– Nə yaman sevinclisən, qağa? Bu gün nə günüdür belə?

Xəttin o başında həyəcanqarışıq sevincli bir səs eşidildi:

– Axır ki, bacı, axır ki, məni də çağırdılar. Mən illərdir bu günü səbirsizliklə gözləyirdim, bu gün arzuma çatdım. Mən bu gün vətən torpaqlarının azadlığı üçün  yola düşürəm. Tezliklə sizə qələbə sorağını verəcəyəm.

Bacısının gözləri yaşardı:

– Can, ay qağa, allah səni və bütün əsgərləri qorusun! Bu vətənin sizin kimi igidləri var, əlbəttə, siz bizə qələbə sevincini bəxş edəcəksiniz. Allah yardımçınız olsun! – deyə qardaşına xeyir-dua verdi.

– Amma anamgilə hələlik heç nə demə, qoy heç nə bilməsinlər, narahat olmasınlar. İmkan etdikcə özüm onlara zəng edəcəyəm, – deyə Nihad bacısından xahiş etdi.

– Arxayın ol, qağa, sən necə istəyirsən, elə olsun. Özünü qoru, sən bizə də, bu vətənə də çox lazımsan!

– Narahat olma, düşməni məhv etməyincə can verməyəcəm, - deyə gənc kapitan şən səslə bacısını əmin etdi.

Təyyarədə olarkən şəklini çəkərək altına bu

sözləri yazıb qardaşına göndərdi: “Mövzu vətəndirsə, dünyanın şah damarını kəsərəm. Qarabağ Azərbaycandır!” Bu sözlər vətən sevgisini özündə daşıyan vətən boyda bir ürəyin qəlb atışları idi, bütün dünyaya Azərbaycan əsgərinin gücünü göstərəcək sübut idi.

Nihadın artıq illərlə gözlədiyi arzusu gerçəkləşmişdi. İndi bu illər ərzində öyrəndiyi bütün döyüş texnikalarını düşmən üzərində tətbiq edəcəkdi. İndi ana vətənin azadlığı uğrunda bütün gücünü səfərbər edib düşməni torpağından qovacaqdı. Nəhayət ki, həsrətli ellərin gözləri güləcək, ağrılı qəlblərin yarası sağalacaqdı.

Onun döyüş yolu Füzulidən başladı – keçilməsi çətin olan, düşmənin otuz il ərzində tikib bərkitdiyi istehkamların olduğu, gərgin döyüşlərin baş verdiyi qədim insan məskəni Füzulidən. Amma igid vətən oğlu öz əsgərləri ilə bərabər bu döyüşlərdə qəhrəmancasına vuruşur, böyük şücaət göstərirdi.

İlk tapşırıq düşmən arxasına keçib uzunluğu iki kilometr olan bir silsiləni almaqla başladı. Gecə düşmənin dərinliyinə sızaraq həmin nöqtəyə yetişdilər. Səhər açılar-açılmaz Nihad Babayevin komandası tapşırıqda göstərilmiş silsiləyə hücum etdi və heç bir itki vermədən bu silsiləni ələ keçir-

di. Bu əməliyyatda Nihad öz qrupunun başında oldu, ona bacarıqla rəhbərlik etdi ki, silsilə uğurla alındı. Bu tapşırığın yerinə yertirilməsindən bir müddət sonra növbəti döyüş taprşırığı alındı. Onlarla üzbəüz olan düşmən postlarının ələ keçirilməsi əmrini alan kapitan burada da öz peşəkarlığından istifadə etməklə əmri yüksək səviyyədə yerinə yetirdi.

Hər uğurlu əməliyyatdan sonra Nihada sanki yeni ruh gəlirdi. Bu ruhyüksəkliyi döyüşdə itirdiyi qüvvəsini birə beş artırırdı. Ömrü boyu bu anı gözləyən kapitan komandanlıqdan gələn döyüş əmrini səbirsizliklə gözləyirdi. Növbəti tapşırıq Füzuli - Xocavənd istiqamətində döyüşlərə qatılmaq idi. Onlara Füzulinin Diləğarda kəndini işğaldan azad etmək əmri verilmişdi. Orada düşmənin çox əhəmiyyətli bir postu var idi. Əli Kərimovun qrupu kəndə daxil olanda düşmən onları həm müxtəlif silahlardan atəşə tutur, həm də olduqları yerin koordinatlarını verib atəş nöqtələrini susdurmağa çalışırdı. Bu an Nihadın qrupu hücuma keçdi və sarsıdıcı zərbələrlə düşməni geri oturtdu. Nihadın rəhbərliyi ilə həmin post itkisiz ələ keçirildi və kənd azad olundu.

Murov və Haramı düzü istiqamətində kəndin alınması tapşırığını alan cəsur zabit yenə də

əsgərləri ilə bərabər döyüşə atıldı. Burada 50-yə yaxın düşmənin canlı və hərbi qüvvəsi məhv edildi. Daha sonra Xocavənd istiqamətində gedən döyüşlərdə xüsusi qəhrəmanlıqla vuruşaraq şücaət göstərdi. Həmişə öndə getməyi xoşlayan kapitan deyirdi ki, məndən öndə heç kim gedə bilməz. Bu hərəkəti onu əsgərlərinə daha da sevdirir, eyni zamanda, döyüşçülərdə inam, əminlik yaradırdı – komandir öndə gedəndə əsgərlər onun ardınca qətiyyətlə addımlayırlar.

Döyüşə girmədiyi gün Nihad üçün çox cansıxıcı keçirdi. Hər keçən an səbirsizlənərək: "Hücum edək, kənd alaq, rayon alaq, komutan", – deyə müraciət edirdi. Tapşırıq alan kimi də böyük coşqu ilə onun yerinə yetirilməsi üçün planlar cızırdı. Nihad peşəkar kəşfiyyatçı idi. O, rus, ingilis, erməni dillərini mükəmməl bilirdi. Bu xüsusiyyəti onu düşmən arxasına keçərək xüsusi əhəmiyyətli məlumatlar əldə etməsinə imkan verirdi. O, düşmənin 3 kilometrliyə kimi dərinliyinə sızaraq məlumatlar əldə edir, koordinatları komandanlığa ötürürdü. Onun kəşfiyyatları sayəsində neçə-neçə düşmən mövqeyi aşkar olunmuş, xeyli sayda hərbi və canlı qüvvə məhv edilmişdi.

"Tapşırıq var" xəbəri kapitan Babayevin ürəyinə bir sərinlik gətirdi – Füzulinin Yağlıvənd

kəndini düşməndən təmizləmək əmri verilmişdi. Böyük strateji əhəmiyyətə malik olan bu kəndin azadlığı üçün kapitan Babayevin qrupu ilə yanaşı bir neçə qrup da cəlb olunmuşdu. Təyin olunmuş vaxtda əməliyyatın icrasına başlayan qruplar kəndin müxtəlif istiqamətlərində döyüşə başladılar. Lakin yuxarıda özünə mövqe seçən düşmən Azərbaycan əsgərlərinin kəndə girməsinə imkan vermir, olduğu mövqedən şiddətli atəş açaraq onların irəliləməsinə mane olurdu. Bu vaxt kəndin aşağı hissəsində döyüşən bir neçə qrup düşmənin qurduğu mühasirəyə düşdü. Onları bu pusqudan qurtarmaq lazım idi. Polkovnik Tehran Mənsimov kəndin digər istiqamətində öz qrupu ilə döyüşən kapitan Babayevlə dərhal əlaqə yaratdı:

– Kapitan Babayev, düşmən kəndin aşağı istiqamətində döyüşən qrupları pusquya salıb, yuxarı istiqamətdən atəş açır. Sənə kəndə həmin istiqamətdən giriş edib düşməni zərərsizləşdirmək tapşırığı verilir.

– Oldu, yoldaş polkovnik, – deyə Nihad cəld tapşırığın icrasına başladı – qrupu ilə həmin yüksəkliyə doğru irəlilədi. Özünün xüsusi əməliyyat taktikası ilə düşməni məhv edib yüksəkliyin azad olunması barədə məruzə etdi, qrupun kəndə rahat girə bilməsi barədə məlumat verdi. Bundan son-

ra əsgərlər kəndə daxil olub bayrağımızı həmin əraziyə sancdılar. Həmin posta daxil olan polkovnik Mənsimov məhv edilmiş düşmən cəsədlərini saydı: 63 erməni əsgəri cansız halda yerdə uzanıb qalmışdı. Bu sayda düşmənlə Nihad Babayev 12 nəfərlik qrupu ilə mübarizə aparmış, itki vermədən düşmənə qalib gəlmişdi. Cəsur döyüşçü Nihad Babayevin sayəsində bir ərazi də düşməndən təmizləndi, bir kənd də azadlığına qovuşdu.

Füzulinin Yuxarı Yağlıvənd kəndi işğaldan azad edildikdən sonra kəndin sağ tərəfində yerləşən yüksəkliyin azad olunması tapşırığı alındı. Gecə düşəndə Nihad Babayev öz komandası ilə həmin yüksəkliyə doğru irəliləməyə başladı. Bu vaxt onlar növbəti dəfə düşmən pusqusuna düşdülər. Gecə vaxtı həmin ərazidə gərgin döyüş başlandı. Düşmən üç tərəfdən onları mühasirəyə almışdı. Əlverişli yüksəlikdə mövqe seçən düşmən şumlanmış, açıq bir ərazidə onları asanlıqla seçə bilirdi. Gizlənib qorunmaq üçün daldalanacaq da yox idi. Çox çətin bir vəziyyət yaranmışdı. Lakin təcrübəli döyüşçü öz soyuqqanlılığını qoruyaraq yollar düşünməyə başladı. Nə düşündüsə əsgərlərə işarə ilə:

– Hər kəs olduğu yerdə uzanıb qalsın,- deyə əmr verdi. Düşmən baş qaldırmağa belə imkan

vermirdi. Hərəkət aşkar edən kimi dərhal atəş açırdı. Bir neçə saat tərpənmədən bu vəziyyətdə qalmaq çətin olsa da, sağ qalmaq üçün ən uyğun çıxış yolu idi...

Artıq səhər açılır, hava işıqlanırdı. Buradan çıxmaq lazım idi. Hava aydınlanandan sonra bunu etmək mümkün olmayacaqdı. Bütün əsgərlər həlak ola bilərdi. Döyüş yoldaşı Əli ilə nə etmək barədə düşündülər. Birdən Nihad Əliyə tərəf dönərək qərarını açıqladı:

– Mən onların fikrini yayındıracağam, sən bu müddət ərzində əsgərləri döyüş meydanından uzaqlaşdır.

O, bir pulemyot, bir də snayperini götürdü, əhəmiyyətli mövqe seçərək düşmənin atəş mövqelərinə atəş açmağa başladı. Düşmənin diqqətini öz üzərinə çəkməklə qrupun geri çəkilməsinə imkan yaratdı. Bu döyüşdə də o çoxlu sayda düşmən əsgəri və hərbi qüvvəsi məhv edərək əməliyyatı uğurla yerinə yetirdi. Bu döyüş də məhz Nihad Babayevin peşəkarlığı sayəsində itkisiz başa çatdı.

Bir-birinin ardınca Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Xocavənd istiqamətlərində gedən qızğın döyüşlərdə iştirak edən kapitan Nihad Babayev peşəkarlıq nümayiş etdirərək qəhrəmanca-

sına döyüşdü, hər döyüş tapşırığı uğurla həyata keçirildi.

Nihad Babayev iştirak etdiyi bütün əməliyyatları taktiki gedişlərlə, az şəhid verməklə yerinə yetirirdi. Bu, bir xüsusi təyinatlıya xas olan hərəkət idi – az itki ilə böyük əhəmiyyətli yüksəklikləri götürmək. Onun bu bacarığı öz əsgərlərini də ona bənzəməyə vadar edirdi – hamısı ona oxşamağa, onun kimi olmağa çalışırdı. "Balta" ləqəbli "Cənub qartalı" Nihad Babayevin təkbaşına onlarla düşməni, hərbi texnikanı məhv etməsi haqqında artıq bütün bölük bilirdi. Nişançı kursunu bitirdiyindən oturub səbirlə gözləyir, canlı qüvvəni tək-tək məhv edərək bir neçə postun alınmasına nail olurdu.

Türkiyədə hərbi təlim keçmiş Nihadın atışları dəqiq, fiziki qüvvəsi çox idi. Onunla təkbətək çıxan düşmən artıq sonunun çatdığının fərqində idi. Çünki Nihadın əlindən qurtuluş yox idi. Sanki illərlə düşmənə olan qəzəbini ürəyində saxlamış hərbçi bir anın içində bunu düşməndən çıxmaq istəyirdi.

Onun igidliyi, cəsurluğu əsgərlərində ruh yüksəkliyi yaradırdı. Ən çətin döyüşdən sonra da onun əhvalı həmişə yüksək, səsi həmişə şən olurdu. Yorğunluğa baxmayaraq komandirlərinin on-

ların yanında olması əsgərləri ruhlandırırdı. Komandir əsgərləri ilə söhbət aparır, onları növbəti tapşırıq üçün psixoloji cəhətdən də hazırlayırdı.

Qızılqaya əməliyyatı da məhz belə ruhyüksəkliyi və döyüş bacarığının sayəsində işğaldan azad edildi.

– Yeni tapşırıq var, – deyə kapitan əsgərləri başına yığdı. Onlara nə etmək lazım olduğunu başa salıb:

– Bu gecə əməliyyata başlayırıq, indi isə dincəlin, – deyə hər kəsi dincəlməyə göndərdi.

Axşam düşəndə komandası ilə bərabər tapşırığı yerinə yetirmək üçün yola düşdü. Bu, düşmənin böyük qüvvəsi olduğu istiqamətdə olan tapşırıq idi. Qarşılaşacaq təhlükədən əvvəlcədən xəbər tutmaq üçün qabaqda iki nəfərdən ibarət kəşfiyyat qrupu gedirdi. Bu vaxt düşmən snayeperi hər iki əsgəri vurdu. Yaralı əsgərləri həmin ərazidən çıxarmaq lazım idi. Əli irəli gedib onları çıxarmaq istədiyini bildirəndə Nihad buna etiraz etdi:

– Sən qal, özüm gedəcəyəm.

– Komandir, axı...

– Dedim ki, qal, unutma ki, mən snayperçiyəm, onların dilini mən yaxşı bilirəm, – kapitanın zəhmli baxışları döyüşçünün gözünə tuşlandı.

Sonra əsgərlərdən birinə səslənərək:

– Əhmədov, gəl mənimlə, – deyə pulemyotçunu özü ilə götürdü.

İrəli gedərək düşmən snayperçilərini məhv edib yaralıları oradan çıxartdı.

Nihad Babayev döyüşdə yalnız qəhrəmanlığı ilə seçilmirdi, o, eyni zamanda, qayğıkeşliyi və mehribanlığı ilə də hər kəsin sevgisini qazanmışdı. Xüsusi əhəmiyyətli tapşırıqların birində döyüş yoldaşı kiçik çavuş Vəzir Məmmədxanov dağdan düşəndə ayağı burxularaq zədələnir. İlk tibbi yardım göstərən Nihad Babayev sonra onu kürəyinə alaraq öz mövqelərinə aparır...

Vətən müharibəsinin başlanmasından artıq bir ay ötürdü. Bu müddət ərzində rəşadətli Azərbaycan əsgərləri bir çox əraziləri düşməndən azad etmişdi. Demək olar ki, hər gün qələbə xəbəri gəlirdi. Otuz il ərzində bu sevincli xəbərlərə susamış xalq onları göz yaşları içində qürurla qəbul edirdi. Çünki azad olunmuş torpaqlarla yanaşı, bir millətin mənəvi dəyərləri də qayıdırdı. Bir qərinəyə yaxın müddətdə çəkilən əzablar, görülən işgəncələr bu zəfər xəbərləri ilə sanki yuyulub gedir, yerini xoş bir rahatlıq alırdı. Bu, qəhrəman Azərbaycan oğullarının xalqa bəxş etdiyi rahatlıq idi.

İşğaldan azad olunmuş əraziləri gördükcə hər kəs sözlə ifadə olunmayan hisslər yaşayırdı. Ürək

kövrəlir, gözdən ixtiyarsız yaşlar süzülür, amma çöhrəyə xoş bir təbəssüm qonurdu. Dodaqlar "Allah səni qorusun, Azərbaycan əsgəri!, Ruhunuz şad olsun, şəhidlərim!" kəlmələrini pıçıldayırdı. Şəhərin küçələrində, binaların eyvanlarında, avtomobillərin pəncərələrində qürurla dalğalanan üçrəngli Azərbaycan bayrağını görmək möhtəşəm hiss yaradırdı adamda. Bu duyğunu onlara yaşatdığı üçün xalq Azərbaycan əsgərinə alqış deyirdi.

Əsgərlər hər gün arxa cəbhədən onlarla məktub alırdılar. Bu məktubları onlara məktəblilər, analar, atalar, bacılar yazırdılar. Məktubların hər sətrindən vətənə sevgi, əsgərə rəğbət, qələbəyə inam boylanırdı. Bu məktublar döyüşçüləri daha da ruhlandırır, xalqın onlara olan inamını doğrultmaq üçün qətiyyətlə irəli atılmağa sövq edirdi. Əsgər biləndə ki, arxada onu gözləyən var, o daha inamla, daha ürəklə döyüşür.

Belə məktublardan birini də kapitan Babayev almışdı. Kimdən gəldiyini bilmirdi, müəllifi də tanımırdı, amma məktubdakı isti sözlər ona doğma bir kəsdən məktub aldığı hissini yaşadırdı. Kapitan bir kənara çəkilib məktubu oxumağa başladı:

"Əsgərə məktub

Salam, əsgər! Bu məktubu sənə gələcək əsgər

anası, sənin kimi vətənpərvər igidlər yetişdirmək vəzifəsini yerinə yetirən bir müəllim, şeirinin hər misrasında vətən nidası səslənən bir şair olaraq yazıram.

Əsgər, ön cəbhədə olduğu kimi arxa cəhbədə də bir ordu var. Düşmənlə qarşı-qarşıya mübarizə aparanlara dayaq olmaqdır o ordunun vəzifəsi. Silahı dua, qalxanı alqışdır onun. Sən və silahdaşların hər an o ordunun dualarındasınız. Siz bizi qoruduğunuz kimi Allah da sizi qorusun!

Əsgər, bilirsənmi, iki aydır ki, elliklə «yediyimiz, içdiyimiz» ancaq qələbə xəbərləridir. Biz qələbənin şirin tamından xəbərsiz idik. (Özgə payının dadı olmur, əsgər). Bizim öz qələbəmizi bizə siz daddırdınız, sən və silahdaşların! Bizi "ac qoymadığınız" üçün var olun!

Əsgər, azad etdiyiniz hər qarış torpaq bizə bir dünya sevinc bəxş edir. Siz addım-addım irəlilədikcə vətən mülkü kənd-kənd, şəhər-şəhər bütövləşir, cənnət yurdun hüdudları genişləndikcə ürəyimiz də vətən-vətən böyüyür, azadlığa qovuşmuş hər yüksəklik üçün onun özü boyda sevinc yaşayırıq.

Biz xoşbəxt nəslin nümayəndələriyik - əsrlərdir ki, yaşanmayan möhtəşəm hadisələrə şahidlik edirik. O hadisələrə ki, övladlarımıza, şagirdləri-

mizə, oxucularımıza qürurla ondan söz aça biləcik. O hadisələrə ki, mənliyimizi, qürurumuzu, şərəfimizi bizə qaytardı, bizi alnıaçıq, başıdik gəzməyə müvəffəq etdi. Bu gün bir tarix yazılır, ən yeni tarix! Onu müzəffər Azərbaycan Ordusu yazır! Biz sizinlə fəxr edirik!

Əsgər, artıq ana təbiətin sarı donlu qızı vətənimizə qonaq gəlib, sərin nəfəsi ilə soyudur hər yeri - mən olduğum şəhəri, sən keçdiyin dağları, düzləri. Mənim evimi istilik sistemi qızdırır, səni  Azərbaycan xalqının sevgisi; mənim yerim daş binadır, sənin yerin isti ürəklər; mənim çiynimdə yundan toxunmuş şal var, sənin əynində xalqın duası. Bəzən elektrik kəsilir, evim bumbuz olur, bəzən daş bina da uça bilir, yun şalın da ilmələri sökülüb yumağa dönə bilir, amma xalqın sevgisi kəsilmir, ürəklərin istisi əskilmir, duaların təsiri azalmır. Sənin yerin mənimkindən daha etibarlıdır, əsgər! Biz səni daim o yerdə, o ucalıqda saxlayacağıq! Bu soyuq payız günlərində üşümə, əsgər, sənə qəlbimizin hərarətini, dilimizin alqışını göndəririk! Tətikdə olan əlin titrəməsin, irəli addımlayan ayaqların büdrəməsin!

İrəli, əsgər, zəfər sənindir! Zəfər bizimdir! Qarabağ Azərbaycandır!

Sayğılarla: Azərbaycan qadını, müəllimi, şairi, anası."

Məktubu oxuyub bitirəndə əzmkar zabit duyğulandı, qəlbi riqqətə gəldi. Məktubu qatlayıb cibinə qoyaraq öz-özünə: "Darıxma, bacım, sizin sevginizdən güc alıb arzusunda olduğunuz o qələbəni tamlıqla sizə daddıracağıq!" – deyə qürurla dilləndi. Zəif payız günəşi buludlardan əl edib kapitanı salamladı, axşamın sərin mehi onu xəfifcə alqışladı...

Oktyabrın 28-i idi. Qələbəyə çox az qalmışdı. Hər gün TV kanallarından, sosial şəbəkələrdən cəbhədəki vəziyyət haqqında məlumat alan xalq tezliklə səhərlərindən birini qələbə xəbəri ilə açacağına bütün qəlbi ilə inanırdı. Gecələr yatmayıb səhəri dirigözlü açan insanlar həsrətlə gözlədikləri bu xəbəri qaçırmaq istəmirdilər. Hamıdan tez xəbər tutmaq üçün bütün diqqətlərini cəbhədən gələn xəbərlərə dikmişdilər. Nihad nədənsə bu gün birdən qəribsədi. Evi, ailəsi yadına düşdü. Sonra şəhid olmuş döyüş yoldaşlarını xatırladı. Telefonu əlinə alıb uşaqlıq dostu Polada zəng etdi:

– Salam, qardaş, necəsən? Kənddə nə var, nə yox?

– Salam, igid, sağ ol, salamatlıqdır, - deyə Polad sevinclə dilləndi. Sonra əlavə etdi:

– Kənddə hamı səndən, əsgərlərdən danışır. Nə yaman toy tutursunuz o şərəfsizlərə.

– Qardaş, biz elə bu günlər üçün oxuyub təlim almışıq da. Ana torpağı o murdarlarda qoyacaq gözmü var bizdə? – deyə Nihad əminliklə dilləndi.

– Ay sizə qurban olum, ay sizin başınıza dönum, qırın e bu məlunları! – deyən Polad sonra əlavə etdi:

– Kapitan rütbəsi də almısan, təbrik edirəm, qardaş.

– Mən hələ ən böyük rütbəni almamışam, onu da alacağam allahın izni ilə, – deyib astadan əlavə etdi:

– Kaş siz mənim şəhid olmağımı qeyd edəsiniz, bundan böyük rütbə yoxdur.

Polad onun son cümlələrini başa düşmədi:

– Sən general olmağa layiqsən ee, Nihad! İnşaallah, o günü də görərik!

Dostu ilə danışandan sonra bir qədər rahatladı. Amma növbəti döyüşü düşünmədən dayana bilmirdi. Hər əməliyyatöncəsi belə olurdu – itki vermədən tapşırığı yerinə yetirmək onun məqsədi idi. Bu gecə də növbəti tapşırıq haqqında düşünürdü. Bu dəfəki tapşırıq çox çətin və strateji yüksəkliyin alınması idi. Əsgərlərini bacardığı qədər qorumalı idi. Hər əsgər anası onun öz anası

idi, onların göz yaşları qarşısında dözüm gətirə bilməzdi. Əsgərlərini də çox sevirdi. Onların itkisinə razı ola bilməzdi. Bu səbəbdən də bütün gecə düşünüb ən uyğun yollar tapmağa çalışırdı.

Başını qaldırıb göy üzünə baxdı. Səmada ulduzlar parıldayırdı. "Sabah hava günəşli olacaq", - deyə uşaqlıqdan eşitdiyi bir deyimi xatırladı. Bu vaxt göydən bir ulduz axdı. Ulduzun ardınca baxıb köksünü ötürdü: "Görəsən, kimin ulduzu söndü?" – deyə qayğılandı.

Gecə çox sakit idi. Payızın ikinci ayı olmasına baxmayaraq havalar xoş keçirdi. Sanki bahar idi. Birdən Nihadın ağlına qəribə bir fikir gəldi, öz-özünə düşündü: "Elə bil təbiət də bizə tərəfdir, o da bizimlə müttəfiqdir. Payızın soyuğunu yubadır, yağışını saxlayır ki, vətən üçün döyüşən əsgərlər üşüməsin, palçıqlı yollarda addımları ləngiməsin, tətik çəkən əlləri yağışda, küləkdə titrəməsin. Buna görə ana təbiətə minnətdar olmaq lazımdır", – düşüncəsiylə üzünü göyə tutub şükür etdi...

Zabit Babayev Füzulinin Yuxarı Veysəlli kəndi istiqamətində əlverişli yüksəklik olan Uryandağ yüksəkliyini əldə etmək tapşırığı almışdı. Bu, elə bir yüksəklik idi ki, düşmən oradan rahatca mövqelərimizə nəzarət edə, əsgərlərimizə atəş aça

bilirdi. Düşmən əsgərlərimizə irəli addım atmağa imkan vermirdi. Həmin yüksəklik düşməndən təmizlənməli idi ki, Azərbaycan əsgərləri Şuşa və Xocavənd istiqamətinə giriş edə bilsinlər. Bu döyüşün gərgin olacağını Nihad və silahdaşları yaxşı bilirdi. Bu yüksəkliyi əldə etmək qələbəyə daha da yaxınlaşmaq demək idi. Bu yüksəkliyin azad olunması ilə də Qarabağın ürəyi, mədəniyyət beşiyi olan Şuşaya qapılar açılacaqdı. Düşmən də bunu bilirdi. Odur ki, hər vəchlə həmin yüksəkliyi əldən verməməyə çalışırdı, bunun üçün bütün qüvvəsini səfərbər etmişdi.  Lakin kapitan Babayevin önündə düşmən tab edə bilərdimi? Nihad nahaq yerə illərini hərbin sirlərinə yiyələnməyə, hərb texnikasına dərindən bələd olmağa sərf etməmişdi ki? İndi bu əhəmiyyətli tapşırığın öhdəsindən gəlmək üçün yenə də bütün gücünü ortaya qoyacaq, bütün bildiklərini tətbiq edəcəkdi. Belə də oldu. Xüsusi hərbi taktikalardan və öz peşəkarlığından istifadə edərək həmin yüksəkliyin düşməndən azad olunması üçün mübarizəyə başladı. Məhv edilən düşmən cəsədlərinə əhəmiyyət vermədən mövqeyini bərkidir, qaçıb canını qurtarmağa çalışan düşmənə tərpənməyə imkan vermirdi. Uzun və gərgin döyüşlər nəticəsində nəhayət, yüksəklik azad olundu. Lakin bu

döyüşdə Nihad Babayevin qrupundan 4 nəfər şəhid oldu. Şəhid olmuş əsgərlərinin qanını almaq üçün silaha daha bərk sarılan Nihad: "Alın, gəldi, bu da sizə qardaşlarımın əvəzindən!", - deyə hayqıraraq düşmənin başına od yağdırmağa başladı. Eyni nöqtədən dayanmadan açılan atəş düşmən snayperinə zabitin yerini müəyyən etməyə şərait yaratdı.  Qəfil açılan düşmən gülləsi Nihadın sağ böyründən keçib sol döş qəfəsindən çıxdı. Əvvəlcə nə olduğunu anlamayan Nihad sadəcə bədənində bir gizilti hiss etdi, sonra bütün bədəni istilənməyə başladı. Sinəsindən axan qanı görüb yaralandığını başa düşdü. "Yox, bu, son ola bilməz, mən hələ sizin kökünüzü kəsməmişəm", – deyə əlini sinəsinə sıxdı. Köksündən yaralanan kapitan qanı saxlamaq üçün yaranı bintlə sarıyıb yenidən silaha sarıldı. O, bir əli ilə sinəsindən axan qanı saxlamağa çalışır, o biri ilə isə düşmənə atəş açırdı. Onu bu halda görən döyüş yoldaşları təxliyyə etmək istədilər. Lakin Nihad onlara belə cavab verdi: "Heç yerə gedən deyiləm, mən bu döyüşü davam etdirəcəyəm, "son damla qanıma qədər" ifadəsini yalnız dildə deməmişdim mən", -  sonra əlavə etdi: "Mənə vaxt itirməyin, davam edin",- yenidən atəş açmağa başladı. Yaralı halda xeyli müddət düşmənlə döyüşən Ni-

had artıq çoxlu qan itirirdi. Yoldaşları onu döyüş bölgəsindən çıxara bilmirdilər. Bu hadisə hər kəsi heyrətləndirmişdi. Nihad isə sanki qan itirdiyinin fərqinə varmırdı. Onun fikri, diqqəti yalnız qarşıda – bütün qəzəbini yönəltdiyi düşməndə idi. Uşaqlıqdan bu günə kimi bu amalla yaşamış, bu arzuyla böyümüşdü. İndi son anlarda bu fürsəti əldən vermək istəmir, bacardıqca daha çox düşmən məhv etmək istəyirdi. Dəqiqələr ötdükcə Nihad özünü bir az da toparlayır, atışlarının sərrast olmasına çalışır, silahını susdurmurdu. Birdən: "Məni öldürmək elə də asan deyil, məlun düşmən, sənin nəfəsini kəsməyincə bu dünyadan köçmərəm mən", - deyib rahat nəfəs aldı. Bir anlıq hər kəs susdu, hamı yerində donub qaldı. Bu hadisəyə şahidlik edənlər bu igidin cəsurluğuna, qəhrəmanlığına bir daha heyrət etdilər - Nihad onu vuran düşmən snayperinin yerini müəyyən etmiş, onu məhv edəndən sonra həyata gözlərini yummuşdu. Özü dağlardan da uca olan bir igid uca dağlar qoynunda əbədi yuxuya dalmışdı. Sanki dağlar, daşlar dil açıb dillənirdi:

***"Qucağında bir yer də aç,***
***Balan gəlir yenə, Vətən..."***

Bir neçə saat sonra Azərbaycan Müdafiə Nazirliyi məlumat yaydı: "Füzuli rayonu Yuxarı Veysəlli kəndi istiqamətində olan Uryandağ silsiləsi düşməndən tamamilə azad olunmuş, həmin ərazi bütünlüklə Azərbaycan Ordusunun nəzarəti altına keçmişdir". Bu xəbərə ürəkdən sevinib qürurlanan Azərbaycan xalqı əsgərlərə cansağlığı, şəhidlərə rəhmət diləyirdi. Səmadan yer üzünə boylanan şəhidlərin təbəssümlü çöhrəsi arasında bu yüksəkliyin azad olunması uğrunda son damla qanına qədər vuruşmuş qəhrəman zabit Nihad Babayev də var idi...

İndi hər kəsdən təbrik gözləyirdi Nihad - ən ali məqama, zəhidlik zirvəsinə ucaldığı üçün hamı onu təbrik etməliydi. Axı o, özü həmişə bunu istəmişdi – "O gün olsun mənim şəhidliyimi qeyd edəsiniz", – deyə hamını bu günə hazırlamışdı. İndi də hamı "Şəhadətin mübarək olsun, şəhidim!", – deyə onu təbrik etməliydi...

Payız kənddə özünü şəhərə nisbətən daha tez göstərir – yarpaqlar saralır, otlar quruyur, tədricən soyuyan hava insanları evlərə salır. Yayın üç ayını işləmiş, qışa azuqə toplamış, payız əkinini də yekunlaşdırmış kənd əhalisi artıq yavaş-yavaş isti evlərə çəkilirdi.

Günəşli kəndinə də payız gəlmişdi – hasarların dibindən boylanan yoncalar saralmış, yola kölgə salan ağaclar çılpaqlaşmışdı. Küçələrdə dolaşan adamlar artıq evlərə yığılmışdı. Bütün bunlar həzin bir kədər yaradırdı adamda. Bu payız özü ilə kəndə başqa bir hüzn də gətirmişdi – vətən müharibəsində Günəşli kəndi beş şəhid vermişdi. Bütün kənd bu acını birlikdə yaşayır, bu ağrını birlikdə çəkirdi.

Bu gün səhərdən Seyidxanım ana özünə yer tapa bilmirdi. Ürəyi özünə də məlum olmayan səbəbdən narahatlıqla çırpınırdı. Bu gərginliyi dəf etmək üçün gah həyətdə dolanıb künc-bucağı yığışdırır, gah da tez-tez evə girib-çıxırdı. Onun bu halını görən Akif kişi onu səslədi:

– Ay seyidin qızı, nə olub sənə, səhərdən özünə yer tapa bilmirsən?

– Nə bilim, ay kişi, ürəyim nəsə narahatdır.

– Ürəkmi qalıb bizdə? Gör necə oğullar getdi, – deyə Akif kişi köks ötürdü.

Seyidxanım ana göz yaşlarını saxlaya bilmədi:

– Analar necə dözsün bu dərdə? – deyib hönkürdü.

– Bir tərəfdən də sevinirik ki, torpaqlarımızı alırıq, bu oğullar nahaq yerə şəhid olmur. Sözünə bir qədər ara verib sonra yenə davam etdi:

– Biləsuvar rayonu I Qarabağ müharibəsində də az şəhid vermədi, həm Qarabağ savaşında, həm də aprel döyüşlərində ümumilikdə 107 şəhid verdik, Mübariz kimi bir oğul dünyaya səs saldı. Vətən müharibəsi başlayandan da Biləsuvar igidləri döyüşdədir. Bu igidlər düşmənin başını əzib bizi bu möhnətdən qurtaracaqlar.

Bu sözlərdən təsəlli tapan ana hıçqıra-hıçqıra: "Nihadla danışmırıq haçandır, demişdi müharibəyə aparacaqlar", – deyə ərinə tərəf döndü.

– Yaxşıdır, dünən danışıb Poladla, deyib, evdə de, hər şey yaxşıdır, özüm əlaqə saxlayacağam.

– Döyüşə getməyib onda? – deyə ana səbirsizcəsinə soruşdu.

– Yəqin ki, getməyib, getsəydi bizə deyərdi.

– Allah bu müharibəni başlayana lənət eləsin, gül kimi cavanlar getdi, – deyə ana ağladı.

Fərid kənardan onların bu söhbətini eşitsə də, bir söz demədi. Bu vaxt onun telefonuna zəng gəldi. Telefondakı səs çox çətinliklə: "Nihad yaralanıb," – deyə bildi. Bu xəbərdən Fəridin rəngi ağardı, əhvalı pisləşdi. Onun bu halı ata-anasının gözündən yayınmadı.

– Nə olub, ay bala? – deyə Akif kişi təlaşla soruşdu.

– Ata, Nihad, Nihad... – Fəridin dili söz tutmurdu.

– Nə olub Nihada? – deyə ana haray çəkdi.

– Nihad yaralanıb, ana, indicə döyüş yoldaşı xəbər verdi.

– Ay oğul, bəs o müharibədə deyildi axı, necə olub yaralanıb? – Akif kişi heyrətlə soruşdu.

– Getmişdi, ata, Nihad bir aydır ki, döyüşdə idi, sizə deməyimizi istəmirdi, – deyə Fərid günahkarcasına dilləndi.

– Yaralanıbsa, evə niyə gəlir, ay Fərid? Bəs niyə hospitala aparmırlar? Bir dəqiqləşdir, gör hardadır?

Fərid harasa zəng vurdu, kiminləsə danışdı. Sonra iki əli ilə üzünü qapayıb hönkür-hönkür ağlamağa başladı.

Akif kişi "Vətən sağ olsun!" – deyib qəddini dikəltdi, Seyidxanım ana isə əlini sinəsinə qoyub "Ay vətən oğlu" mahnısını zümzümə etməyə başladı...

Məğrur olur şəhid ataları, qürurlu olur şəhid anaları, dik dayanır şəhid qardaşları. Xalqının rifahı, vətənin azadlığı üçün canını fəda edən ən ali varlıqdır şəhid! Bəli, varlıq! Əbədi varlıq! Cismani gedişlər itki sayıla bilməz, ürəklərdə məskən salanlar getmiş ola bilməz, ruhu sağ olanlar ölmüş

hesab oluna bilməz! Məqamı yüksək olan şəhidin qarşılanması da gözəl olmalı, özündə məğrurluğu, qüruru təcəssüm etdirməlidir.

Günəşli kəndinə gələn növbəti şəhidin də ailəsi onu qürurla qarşılayırdı: yolun hər iki tərəfində əllərində müqəddəs Azərbaycan bayrağı tutmuş gənclər, dillərdə "Şəhidlər ölməz, vətən bölünməz!" şüarı, yuxarı tərəfdə isə vətən olmuş oğullarını gözləyən məğrurduruşlu ata-ana.

***"Ana, öz haqqını halal et mənə,***
***Sənin əməyindir – igid olmuşam!***
***Başını uca tut, əymə sinənə,***
***Mən vətən yolunda şəhid olmuşam!"*** – şəhid kapitan Nihad Babayevin rəsmlərdən təbəssümlə boylanan baxışları sanki bu misraları söyləyirdi...

Vətən müharibəsində qəhrəmanlıqla şəhid olmuş kapitan Nihad Babayev noyabrın 2-də doğulduğu kənddə dəfn olundu. Özü cismən dünyadan köçsə də , ruhu əbədi olaraq Azərbaycan xalqının qəlbinə köçdü. Sağlığında dəfələrlə medallarla təltif olunan kapitan Nihad Babayev şəhadətindən sonra da "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Vətən uğrunda", "Vətən Müharibəsi Qəhrəmanı" medallarına layiq görüldü.

Nihadın dəfnindən artıq 7 gün ötürdü. Noyabrın 8-də Azərbaycan Ordusunun tarixi torpağımız olan Şuşa şəhərinə daxil olması, Şuşanın azad edilməsi xəbəri bütün ölkədə sevincə səbəb oldu, bayrama çevrildi. Şuşanın geri alınması ilə də qələbənin yaxınlaşdığını hər kəs bilirdi. Şuşasız Qarabağı təsəvvür etmək, qələbəni qeyd etmək mümkün olmazdı. Əzəli və əbədi torpağımız olan, Qarabağ mahalının gözü sayılan Şuşa qələbəmizin möhürünü vurdu. Artıq işğalda olan digər ərazilərin azad olunması asanlaşacaqdı. Şuşaya giriş etmək çox vacib məqam idi. Şübhəsiz, şəhid kapitan Babayev də bunu bilirdi və bütün varlığıyla bu şəhərə girişi təmin etməyə köklənmişdi.

Noyabrın 10-da hər kəs gözünü qələbə xəbəri ilə açdı. Xalq bu xəbəri uzun zamandan bəri gözləsə də, bu tezliklə buna inanmaq çətin idi. Çünki hələ azad olunmamış bir neçə ərazi qalırdı, onları da yağı tapdağından qurtarmaq üçün daha bir neçə gün lazım idi. 44 gün ərzində gedən döyüşlərdən qazanılan qələbə xalqda özünəinamı gücləndirmiş, ruhyüksəkliyini artırmışdı. Hər kəs torpaqların hərb yolu ilə alınmasının tərəfdarı idi. Qüdrətli Azərbaycan Ordusu, qəhrəman Azərbaycan əsgərləri bunun mümkünlüyünü sübut

etmişdi. Lakin bəzən müharibələr siyasi yolla da həll oluna bilir. Tarixə nəzər salaraq bunu görmək olar. Azərbaycanın döyüş tarixində xüsusi yeri olan 44 günlük Vətən müharibəsi də siyasi yolla sonuclandı. Noyabrın 10-da Bakı vaxtı ilə saat 01:00-da Moskvada üçtərəfli müqavilə imzalandı. Həmin müqaviləyə əsasən, bu andan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və hərbi əməliyyatların tam dayandırlıması, 1 dekabradək Ermənistan qüvvələrinin Dağlıq Qarabağın ətrafında Ermənistan ərazisindəki Azərbaycan ərazilərindən çıxarılması və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi göstərilmişdir.

Eyni zamanda, bu müqavilədə 2020-cil il noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də Laçın rayonlarının azad edilməsi qərarı öz əksini tapmışdır. Bu xəbəri eşidən xalq küçələrə, meydanlara axışıb əllərində üçrəngli Azərbaycan bayrağı, dillərində vətənpərvərlik mahnıları ilə bu böyük zəfəri qeyd edirdi. Hər kəs bir-birini təbrik edərək bu möhtəşəm günün sevincini yaşayırdı. Otuz ildir, həsrətlə gözlənən bu günü bütün ölkə bayram edirdi. Amma bu sevincin, şadyanalığın içində acı bir sızıltı da var

idi – şəhidlər... Qələbə sevincini onlara yaşadanları xalq unutmamışdı. Hər üç cümlədən ikisi şəhidlərin ruhunu anmaq, onları ehtiramla xatırlamaq, eyni zamanda, qazi və əsgərlərə cansağlığı diləmək idi. Bu möhtəşəm hissi onlara yaşadanlara bir ömür borclu olduğunu hər kəs bilirdi. Çünki illərlə yaşanan bu ağrı-acını məhz onlar susdurmuş, qəlblərin yarasına məhz onlar məlhəm olmuşdu. Amma indi onların da ruhu şaddır, qanları hədər axmadı, canları əbəs getmədi. Onların uğrunda can qoyduqları torpaqlar azaddır, nəfəs verdikləri o yerlər dirçəlib, ayaq basdıqları hər çığırdan bir çiçək boylanır. Belə bir alnıaçıqlıq, başıdiklik qoyub getmişdi şəhidlər onlara. Bunun əmanət olduğunu da yaxşı bilirdi hər kəs. Şəhid qanı ilə alınmış torpaqlar gələcəyə miras idi. Onu bu günün sahibləri qorumalı, gələcəyə ötürməli idilər. Bu əmanətə xəyanət etməmək üçün xalq bu gün küçələrə axışıb səmadan onlara baxan şəhid ruhları qarşısında söz verirdilər. Bundan sonra bu xalqın öz qələbəsini ürəklə qeyd edəcəyi bir günü var idi.

Uşaqlıqdan qələbə sevdasına tutulan, bu eşq ilə böyüyən kapitan zəfər gününü görməsə də, ona gedən yolun önünü açdı, silahdaşlarının o yolla irəliləməsini təmin etdi. Şəhadətə yük-

sələrək xalqına azad vətən torpaqlarını, bir də dadına doyulmayan qələbə ərmağan etdi. Demək olar ki, arzusuna çatdı. İndi azad vətənin açıq səmasında dolaşan ruhu sevinclidir. İndi bütün şəhidlər kimi onun da dinclik tapmış ruhu canını fəda etdiyi torpaqlarda gəzib-dolaşmaqdadır. Və sanki bütün şəhidlər səs-səsə verib qürurla bir ağızdan oxuyurlar:

***"Ruhum daha şaddır,***
***Çün yurdum azaddır!"***

Azərbaycan Respublikasının Prezidentinin qərarı ilə Şuşanın azad olunduğu tarix – 8 noyabr tarixi "Zəfər günü" kimi, Vətən müharibəsinin başladığı tarix – 27 sentyabr isə "Anım günü" kimi qəbul edildi.

"Sevgi fəsli" deyirdilər beşinci fəslə. Həsrətlərin bitdiyi, könüllərin birləşdiyi, ürəklərin eyni anda vurduğu bir fəsil idi guya. Amma vətən dərdi olanların beçinci fəsli "Zəfər fəsli"dir. Vətən sevdalılarının torpaq həsrətinin bitdiyi, əsgər ürəklərinin fərəhlə vurduğu, böyük bir xalqın sevinc göz yaşlarında islandığı, şəhid ruhlarının rahatlıq tapdığı qələbə ətirli, qələbə yağışlı zəfər fəsli...

## Qələbə eşqiylə böyüyən kapitan

Çevirdi həyatda öz amalına
Ananın verdiyi öyüdü Nihad.
Yığıb ürəyinə vətən dərdini
Qələbə eşqiylə böyüdü Nihad.

Ömrünü həsr edib ana torpağa
Verdi sinəsini daim qabağa,
Azadlıq bəxş edib hər daşa, dağa
Müqəddəs işiylə öyündü Nihad.

Düşmən qol qoymadı sülh barışına,
Atıldı igidlər haqq vuruşuna,
Dönüb torpağımın bir qarışına
On milyon sinədə döyündü Nihad.

Yurdumu bürüyən alaq yolundu,
Haqq da öz yerində axır bulundu,
El-obam işğaldan azad olundu,
Rahatca uyusun qoy indi Nihad.

## Bayrağım

Ey istiqlal müjdəçisi, məğrur bayrağım!
Zirvələrdə vüqar ilə dalğalanırsan!
Qucağını açmış sənə ana torpağım,
Sinəsində həzin-həzin yırğalanırsan.

Sən hürriyyət göylərində doğan günəşim!
Şəfəqlərin səpələnmiş bütün cahana!
Fitrətinə bağlı mənim hər yüksəlişim,
İstiqlalın qoxusunu yaydın hər yana!

Ulu türkdən xatirə var geniş sinəndə,
O al rəngli həqiqətdən almısan ilham!
Mənə aid üç bildiriş cəm olub səndə -
Həm türkçülük, həm azadlıq, həm dinim islam.

Əbədiyyət üfiqində bərqərar oldun,
Qamətini nə gün yaxar, nə də yel yıxar!
Əsrə yaxın bir zülmətdə, zatən, yoruldun,
Yetmişillik ayrılığın acısın çıxar!

Yenilmədin! Nə tufanlar keçdi başından!
Mətinliyin, məğrurluğun hər kəsə örnək!
Sən doğuldun tariximin qan yaddaşından,
Ey bayrağım, doğum günün olsun mübarək!

## Zəfər nəğməsi

Şuşa gözlərini yığdı yollardan,
Laçın da həsrətin daşını atdı.
İgid oğullarım Qarabağımda
Üçrəngli bayrağı göyə ucaltdı.

Yayıldı hər yerə zəfər nəğməmiz,
Həsrətli ellərin gözləri güldü.
Rahat nəfəs aldı vətən torpağı,
Dağları sevindi, daşları güldü.

Yerlər də, göylər də sevindi o gün,
Çıxdı azadlığa doğma yurdumuz.
Qovub elimizdən yağı düşməni
Qələbə qazandı şanlı ordumuz!

## Vətənə dayaq

Vətən çağıranda köməyə səni
Övladlıq borcunu verməyə getdin.
Torpağı qoruyub mənfur yağıdan,
Hər dağın, hər daşın hayına yetdin.

Səni salamladı vətən çölləri,
Doğma ana kimi basdı bağrına.
Bu haqq savaşında zəfər çalmağa
Xeyir-dua verdi igid oğluna.

Atıldın meydana bir aslan kimi,
Güllələr dolutək yağdı başına.
Bütün varlığını qurban eylədin
Vətən torpağının bir qarışına.

Gəlişin düşməni saldı lərzəyə,
Tab edə bilmədi önündə sənin.
Qovub torpağımdan qaniçən yadı
Fəxrinə çevrildin ana vətənin.

Adın dildə gəzir, sevgin ürəkdə,
Gör neçə ürəyin bəzəyisən sən?!
Bu vətən mülkünün dayaq nöqtəsi,
Bu vətən mülkünün özəyisən sən!

## Vətən sağ olsun

“Vətən, sənin basin üstə əsən yelləri
Nəfəsimlə uzaqlara ötürərəm mən.
Dağ-daşına uzanan o qara əlləri
Birdəfəlik yer üzündən itirərəm mən.

Qarşısında mən sinəmi sipər eyləyib
Yol verměrəm at oynada qoynunda yağı.
Kirpiyimi sərhəddinə çəpər eyləyib
Gözüm kimi qoruyaram ana torpağı.

Qucağında can tapşırsam – böyük səadət!
Ölsəm, mənə fəxarətdir, düzündə, Vətən!
“Can” dediyin nədir axı? – Bircə parça ət!
Yüz can ola, qurban edəm yüzün də, Vətən!

Ciyərimə mən çəkərəm isti ağrını,
Təki sənin sinəndəki yara sağalsın!
Qanım ilə sulayaram yanan bağrını,
Öləndə də söyləyərəm: Vətən sağ olsun!”

Vətən oğlu, qeyrətinə mən milyon kərə
Alqış desəm, "əhsən" desəm, yenə bəs olmaz!
Qan uddurdun qana həris qaniçənlərə,
Sənin kimi oğullarla vətən basılmaz!

## Doğma Azərbaycanım

Dağılsın qara bulud,
 Nur yayılsın hər yerə.
Açıq səma altında
Yaşıllaşsın dağ-dərə.

Göylər qoy təmizlənsin
Bombaların hisindən.
Yerlər də diksinməsin
Top-tüfəngin səsindən.

Gül açsın, çiçək açsın
Çölüm, düzüm, ormanım.
Daha da gözəlləşsin
Doğma Azərbaycanım!

## Zəfər fəsli

Nuruyla zülməti aydınladanın
Ruhunu səmada mələklər öpdü.
Azadlıq yolçusu olan ərənim
Müqəddəs üç rəngi göylərə səpdi.

Qəlbin vətən adlı sevgi harayı
Duyan könüllərdə səs eyləyərmiş.
Sönükən nifrəti alışdırmağa
Bircə qığılcım da bəs eyləyərmiş.

Zəfər mövsümündə açan tumurcuq
Sonra pöhrələnib bəhərin verdi.
Polad iradədən qüvvət alanlar
Xalqına qələbə xəbərin verdi.

Bu payız isindi donan könüllər,
Zəfər müjdəsiylə çırpındı ürək.
İndi rahat uyu, şəhid qardaşım!
Hər azad torpağın, daşın mübarək!

# İgid

Vətən sənə "oğul" dedi!
Hərbə hazır oldun, igid!
Sən Şuşamı, Laçınımı
Yad əllərdən aldın, igid!

Gəlib çatdı güc zamanı,
Qisas vaxtı, öc zamanı!
Boş verмədin heç zamanı,
Alaqları yoldun, igid!

Xilas olduq bu dərd-sərdən,
Xəbər verdin o yerlərdən,
Səsin gəldi Kəlbəcərdən,
Aləmə hay saldın, igid!

Adın düşdü dildən-dilə,
Sözün gəzdi eldən-elə,
Əbədi bir sevgi ilə
Ürəklərdə qaldın, igid!

Azad etdin Qarabağı,
Həsrətdəydi daşı, dağı.
Şuşaya sancıb bayrağı
Zəfər marşı çaldın, igid!

## Şəhidlər

Vətən sevgisini ən uca bilib
Onu qorumağa getdi şəhidlər.
Torpağa əkilmiş bir toxum kimi
Qəlblərdə cücərib bitdi şəhidlər.

Doğma yurd-yuvasın özləyən xalqa,
Qəlbinə dağ basıb közləyən xalqa,
Otuz il həsrətlə gözləyən xalqa
Qələbə ərməğan etdi şəhidlər!

And içib vətənin hər dağ-daşına
Yollandı oğullar haqq savaşına.
Şəhadət şərbətin çəkib başına
Ən ali məqama yetdi şəhidlər!

## Cənnətdə yerlər dolubdur

Səma necə aydınlanıb?!
Göy üzünü ruh alıbdır.
Yerdə vətən olanlarım
Qalxıb göyə ucalıbdır.

Anadan mərd doğulanın,
Yüksələrək dağ olanın,
Libası bayraq olanın
Bəylik libası solubdur.

Özü – xalqın diləyində,
Səsi – payız küləyində.
Mərmi dələn ürəyində
Bir vətənlik yer qalıbdır.

Dilim quru, gözüm sulu,
Ahımın göyədir yolu –
İlahi, saxla qəbulu,
Cənnətdə yerlər dolubdur.

## Əsgər geyimi

Övlad acısını daddıran fələk
Dilinin ən şirin tamını aldı.
Dolub pəncərəndən evinə külək
Dirəyiqarışıq damını aldı.

Köçdü qaranlıqlar nurlu dünyana,
"Dağ"ın arxasında batdı günəşin.
Əbədi oyandı zülmətin, ana,
Əbədi yataqda yatdı günəşin.

İndi zamanın da səbir fərmanı
Azadlıq bəxş etməz dustaq ağrına.
Canından bir parça olan o canı
Torpaq "balam" deyib basdı bağrına.

Aldı qucağına balanı torpaq,
Onu əzizlədi öz oğlu kimi.
Səninsə təsəllin – üçrəngli bayraq,
Bir də balan qoxan əsgər geyimi.

## Şəhid atası

Bir ata ürəyi yenə inlədi,
Kədərlə çatıldı yenə də qaşlarf.
Bu ahı, naləni necə dinlədi
Qaniçən qatillər, ürəyidaşlar?

Dağ kimi vüqarla dayansan da sən
Ürəyin hönkürüb ağlayır, ata.
Əlinlə torpağa bir ər verirsən,
"Əməlin" köksünü dağlayır, ata.

Çiynini bu ağır qəm yükü əzdi,
Ağrıdan bağrının başı söküldü.
Fələk də qəddini əyə bilməzdi,
Oğul dərdi ilə belin büküldü.

Əbədi qaraldı gur yanan çıraq,
Dağıldı xaniman, uçdu təməlli.
Sənisə söz ilə ovutdular, bax,
Söz ilə verdilər quru təsəlli.

İndi nə desələr, azalmaz dərdin,
Bu ağrı səddini çətin aşarsan.
Dağ kimi oğlunu torpağa verdin,
Dağ boyda dərdinlə necə yaşarsan?!

## Vətən oğlum

Köksündə vətən eşqi
Döyüşə gedən oğlum.
Xalqımın yurd həsrətin
Qələbə edən oğlum.

Sinəsində dağ olan,
Köynəyi bayraq olan,
Yarısı torpaq olan,
Yarısı bədən oğlum.

Adı dillərdə qalan,
Şəkli əllərdə qalan,
Sevgisi vətən olan,
Özü də vətən oğlum.

Qəlb çəkəmməz bu dağı,
Dildə dolaşar ağı,
Qucub ana torpağı
Əbədi yatan oğlum…

## Şəhid anasının dilindən

"Ana, öz haqqını halal et mənə,
Sənin əməyindir – igid olmuşam.
Başını uca tut, əymə sinənə,
Mən vətən yolunda şəhid olmuşam!"

Elə bil od tutur gəldiyin yollar,
Dağlayır bağrımın başını, bala.
Gedərkən arxanca su atan əllər
İndi qucaqlayır nəşini, bala.

Gedəndə sən özün getmişdin axı,
Atanı qoymadın ötürsün səni.
Bir bax, ətrafında dayanıb çoxu
Tez önə keçir ki, götürsün səni.

Bütün dostlarını tanıyırdım mən,
Yanında görürəm çox yad adamı.
Can balam, necə də sevilirmişsən!
Sənin gəlişinə yığılıb hamı.

Demişdin, qoy gəlim, bir aş dəmlə sən
Qoxusu yayılsın bütün mahala.
Qırmızı qutuda evə gəlmisən,
Ürəyim kababa dönübdür, bala!

Yel əsər, sel axar, bitməz ki dərdim!
Gəlişin nə ağır gəldi anana?!
Hər zaman mən "sənə qurban" deyərdim,
Sən mənim yolumda döndün qurbana.

Sənsiz daxmamızın çırağı sönük,
Hələ evimizdə bir az da qal sən.
Yol uzaq, sinəndə çox ağırdır yük,
Hələ bir rahatlan, dincini al sən.

Gəl qoyum başını dizlərim üstə,
Qara tellərini oxşayım sənin.
Gəl səni saxlayım gözlərm üstə,
Ağrısı azala bəlkə sinənin.

Gəl sənə bir layla oxuyum, dincəl,
Gözündən yuxun da tökülür, oğlum.
Gəl, anan boyuna qurban olsun, gəl,
Üçrəngli bayrağa bükülü oğlum…

## Şəhadət sarayı

Elə bir ölüm ola,
Sevəsən hər anını.
Canını acıtmadan
Ala sənin canını.

Cismini torpaq quca,
Göylərə qalxa ruhun.
Səmadan yer üzünə
Fərəhlə baxa ruhun.

Elə bir ölüm ola,
Çıxarasan dadını.
Ölümlə qazanasan
Ölümsüzlük adını.

Əməldə göstərəsən
Xalqa məhəbbətini.
Birnəfəsə içəsən
Şəhadət şərbətini.

Sənə hörməti ola
Günəşin də, Ayın da.
Sənə də yer ayrıla
Şəhadət sarayında.

## İşğal olunmuş ərazilər:

Xankəndi 26. 12. 1991
Xocalı 26. 02. 1992
Şuşa 08. 05. 1992
Laçın 18. 05. 1992
Xocavənd 02. 10. 1992
Kəlbəcər 02. 04. 1993
Ağdərə 07. 07. 1993
Ağdam 23. 07. 1993
Cəbrayıl 23. 08. 1993
Füzuli 23. 08 1993
Qubadlı 31. 08. 1993
Zəngilan 29. 10. 1993

## Azad olunmuş ərazilər:

Cəbrayıl 04. 10. 2020
Füzuli 17. 10. 2020
Zəngilan 20. 10. 2020
Qubadlı 25. 10. 2020
Şuşa 08. 11. 2020
Xocalı 10. 11. 2020
Xankəndi 10. 11. 2020
Xocavənd 10. 11. 2020
Ağdam 20. 11. 2020
Kəlbəcər 25. 11. 2020
Laçın 01. 12. 2020

# MÜNDƏRİCAT

Ön söz əvəzi....................................................................3
Qələbə eşqiylə böyüyən kapitan....................................9
Bayrağım ........................................................................59
Zəfər nəğməsi................................................................61
Vətənə dayaq .................................................................62
Vətən sağ olsun .............................................................64
Doğma Azərbaycanım..................................................66
Zəfər fəsli........................................................................67
İgid ...................................................................................68
Şəhidlər...........................................................................69
Cənnətdə yerlər dolubdur ............................................70
Əsgər geyimi...................................................................71
Şəhid atası .......................................................................72
Vətən oğlum ...................................................................73
Şəhid anasının dilindən ................................................74
Şəhadət sarayı.................................................................76
İşğal olunmuş ərazilər: ...........................................77
Azad olunmuş ərazilər:..................................................78

Dizayner və səhifələyici: Tünzalə Tağıyeva

Çapa imzalanmışdır: 17.08.2021
Kağız formatı: 84x108 1/32
Həcmi: 5 ç.v; Sifariş: 59; Sayı: 200
«Gənclik» nəşriyyatında nəşrə hazırlanmış
və ofset üsulu ilə çap edilmişdir.